Müşüd (*İnciyə*). Arvad, bu gecə beş yerə bilet almışam, teatra, kinoya...

İnci. Mənə daha bilet lazım deyil. Bəs biz harada oturacağıq? Yerimiz haradadır?

Sadıq. Birinci sıra, birinci yer.

Müşüd. Sizdən qabaqda heç kəs oturmayacaq.

Sadıq. Di gəlin gedək, Gülər xanım, buyurun!

Getmək istədikdə, Usta Segah içəri girir.

Usta Segah. Deməli, barışdınız? Sizi bir yerdə görmək bilirsiniz mənim bu qoca ürəyimi nə qədər cavanlaşdırır?

Sadıq. Usta, gəl bir bizim yoldaşlarımızla tanış ol.

Usta Segah. Böyük həvəs və şadlıqla. (*İnci və Gülərlə görüşür*) Bir az qoca olduğuma baxmayın, əlimdən bu cür cavan binalar çıxır.

Nəsirov və qeyriləri içəri girirlər.

Müşüd (*Sadığa*). Nəsirova de ki, barışmışıq.

Sadıq. (*Nəsirova*). Bir sözümüz var, yoldaş Nəsirov!

Nəsirov. Sözü mən deyəcəyəm. (*Hamının yığıldığını görüb mitinqi açır*) Yoldaşlar! Biz bu istirahət evini vaxtından iki ay qabaq qurtarmışıq. İşçilərimiz, staxanovçularımız, mühəndis və texniklərimiz alqışa layiqdirlər. Ancaq mühəndislərimizin bəzilərində iş məhəbbəti olduğu kimi ailə məhəbbəti nədənsə...

Sadıq. Yoldaş Nəsirov, biz hazırıq.

İkisi də barışdıqlarına işarə edirlər.

Nəsirov. Hə, çox gözəl. Məsələ aydındır. Deməli, bunlarda iş məhəbbəti da vardır, ailə məhəbbəti də, yoldaşlar! Binamız texnikanın son tələbinə uyğun olaraq tikilmişdir. Buna siz özünüz də şahid olacaqsınız. Buyurun, şərəfli əməkdən sonra burada istirahət edin! Biz isə yeni sahələrdə, yeni tikintilərdə məşğul olacağıq.

Lenti kəsir, qapılar açılır, hamı istirahət evinə daxil olur.

Pərdə

1940

AŞNALAR

4 pərdə, 5 şəkildə

İŞTİRAK EDƏNLƏR

Qurbanov Qurban – tədarük idarəsinin müdiri
Firuzə – onun arvadı
Rəhilə – laborant
Murad – kassir
Səməndərli – yanğın və mühafizə şöbəsinin rəisi
Hüseyn – anbardar
Əli kişi – mühafizəçi
Gülümov – hesabdar
Qumru – hesabat stolu müdiri
Ağazadə – rayon partiya komitəsinin təlimatçısı
Qənbər – kolxozdan bir nəfər

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Rayon mərkəzlərinin birində taxıl tədarükü idarəsi. Səkili ev. Bir tərəfdə taxıl anbarı. Səkidə və həyətdə stullar qoyulmuşdur. Yaydır. Pərdə açılan kimi səhnədə həyəcan və gət-gəl görünür. Səməndərli, Hüseyn və Gülümov, Qurbanovun evinə çamadan daşıyırlar. Sonra Qurbanov özü yarıhərbi libasda içəri girir.

Qurbanov. Hə, aşnalar, salam! Çox şadam ki, hamınızı sağ-salamat görürəm.

Gülümov. Siz necəsiniz, yoldaş Qurbanov! Şükür olsun, gəldiniz. Sizsiz bu idarənin bir günü olmasın. Sağ-salamatsınız, inşallah?..

Qurbanov. Dəmir kimiyəm. Sağ-salamat olmamış nə olacaq ki? Qumru, necəsən? Yaxın gəl, əlin əlimə dəysin. Maşallah, günü gündən ətlənirsən. O gün ispalkomun katibi deyir ki, Qumrunu irəli çəkmək istəyirik. Deyirəm, yox, aşna, özümüz irəli çəkmişik, bəsdir. Onsuz deyirəm, yığdığımız taxılın bərəkəti olmaz ki? Hə, Gülümov, bəs sən özün necəsən?

Gülümov. Necə görmüşdüsə Nuh... Sudan kənara atılmış balıq kimi...

Qurbanov. Balıq yaxşı şeydir. Kababını yeyəsən tut arağı ilə... Səməndərli? Səsin çıxmır. Artist olasan, danışmayasan, görünməyən işdir.

Səməndərli. Əlhəmdülillah, yoldaş Qurbanov! Mən artist doğulmuşam, artist də öləcəyəm. Həyat müvəqqəti, incəsənət daimidir.

Qurbanov. İncəsənət yaxşı şeydir. Mən Bakıda narkomatda olanda həmişə teatrlara pulsuz gedərdim. Bir loja verərdilər, on talon alıb, yenə də əl çəkməzdilər. Yaman haramzadə camaatsınız, qərəz. Hə, bacıoğlu, nə var, nə yox? Anbar sağ-salamatdır?

Hüseyn. Hər şey öz yerində cağbacağdır, dayı! Sən arxayın ol.

Qurbanov. Olsun, olsun. Anbardan muğayat ol. Deməsinlər ki, dayı-bacıoğlu baş-başa veriblər. Öz çörəyini yeyib, özgənin sözünü danışan dünyada o qədərdir ki...

Gülümov. Yoldaş Qurbanov! Mən olan yerdə heç kəs sizin sözünüzü danışa bilməz. Sizsiz bu idarənin bir günü olmasın.

Qurbanov. Sağ ol, Gülümov! Qəm yemə. Danışsalar da qoy danışsınlar. Bu idarəni hökumət mənə tapşırıb? Tapşırıb. Anbar da bu idarənin gözüdür? Gözüdür. Mən öz gözümü bacım oğlundan yaxın kimə tapşıra bilərəm ki? Düzdür, düz deyil, Səməndərli?

Səməndərli. Hüseynin tərbiyəsi ilə özüm məşğul olacağam, yoldaş Qurbanov.

Qurbanov. Hüseyni sənə tapşırdım, Səməndərli! Onu adam elə.

Səməndərli. O mənim əlimdə, yoldaş Qurbanov! Çoxlarını adam eləmişəm.

Rəhilə içəri girir.

Qurbanov. Ya Allah! Ordenli qızın kefi necədir? Yaxşı, yaxşı, fors eləmə, bilirik, staxanovçusan. Ordenlisən deyə daha sənə töhmət eləməyə müdirin ixtiyarı yoxdur? Mən özüm töhmət ala-ala gəlib bu mərtəbəyə çıxmışam. Gəl barışaq.

Rəhilə. Heç küsməmişdən də barışmaq olar, yoldaş Qurbanov? İdarədə işin xeyrinə min söz olar. Mən niyə küsürəm ki?

Qurbanov. Yaxşı, yaxşı, cavanlıq eləmə. Mənim necə işçi olduğumu bilmirsən? Mənim sistemimdə yüz belə idarə vardı. Buranı dolandırmağa nə var ki? Bura üçün mənim bir nəfəsim kifayətdir.

Rəhilə. Sizi raykom katibi axtarırdı.

Qurbanov. Gedirəm, gedirəm. Heç çəkməmin tozunu da silməmişdən birbaş raykoma gedirəm. (*Murad içəri girir*) Hə, sən necəsən?

Murad. Bərkdən deyin, yoldaş Qurbanov! Qulağımın motoru xarab olub...

Qurbanov. Ay Gülümov, bununla danışmaqdan bizdə boğaz qalmadı. Bir təzə motor qoy bunun qulağına!

Gülümov. Hələ qulağı eşitmir ki, bizim başımıza bu oyunu açır, gör eşitsə, nə pəstaha törədər. Bu cür sərfəlidir, yoldaş Qurbanov!

Murad. Nə deyirlər, Rəhilə?

Rəhilə. Deyirlər ki, sən sərfəli kassirsən.

Murad. Qulaq asıram? Eşitmirəm ki, qulaq asım! Eşitsəm, bəzilərinə sərf eləməz ki!

Gülümov. Demədim? Pir mənimdir, kəramətini bilirəm axı.

Qurbanov. Yaxşı, yoldaş kar. Vaxtımızı alma.

Murad. Nə buyurursunuz?

Qurbanov. Get işinə.

Murad. Hara gedim?

Qurbanov. Əşi, səsim batdı mənim. Siz də daha tamaşa eləməyin, gedin iş ilə məşğul olun.

Murad. Heç nə başa düşmürəm. Elə yavaşdan danışırsınız ki, elə bil səssiz kinoya baxıram.

Qurbanov. Xeyr a... Siz idarəni qaydaya salın, mən raykoma gedim, görək nə üçün belə təcili çağırırlar.

Çıxır, o biriləri də onu ötürürlər. Səhnədə Murad ilə Rəhilə qalır.

Murad. Dayan, Rəhilə, sən hara gedirsən?

Rəhilə. İşimə. Necə, mənimlə sözün var?

Murad. Ay eşitdim ha... vaxt var idi ki, mənim qulaqlarım sənin o gözəl səsini eşidirdi. O zövqdən də məhrum oldum.

Rəhilə. O vaxtlar mənə qulaq asmaq sənə zövq verirdi? Bəs niyə bir kərə də olsun açıb ürəyinin sözünü mənə demirdin?

Murad. Hə?

Rəhilə. Ay Murad, kar olandan sonra daha da məzəli olmusan. İndi mən səni əvvəlkindən də çox istəyirəm.

Murad. Yaz, bir kağıza yaz, mən də başa düşüm.

Rəhilə. Yazmıram. Əlimə yaxşı fürsət düşüb. Bir vaxtlar ürəyimin sözünü sənə deməyə utanırdım. İndi daha nədən utanacağam ki? Gör necə üzümə baxır?

Murad. Yəqin gülməli söz danışırsan. (*İkisi də gülüşürlər*)

Rəhilə. Hələlik, mənim işim yarımçıq qalıb. (*Gülə-gülə çıxırlar,*

Hüseyn Gülümov içəri girirlər.

Gülümov. Bura bax, anbar Hüseyn, sən ölәsən, gərək muştuluğumu verəsən.

Hüseyn. Axı nə olub ki?

Gülümov. Necə nə olub ki? Bəs başa düşmədin dayını nə üçün raykoma çağırdılar? Yəqin bil ki, qulluğunu artırırlar! Ədə, mən kişinin üzünə baxan kimi dedim də. Dedim ki, bu quş buralarda qalmaz, uçar. Qoyarlar ki, o cür işçi buralarda küllənsin?

Hüseyn. Deməli, yenə köçəcəyik? Çamadan, hambal, dəmir yolu, eh... mən istəmirəm.

Gülümov. Necə istəmirəm? Hazırlaş, yola düşürsünüz. Yəqin o bu saat raykomda axırıncı nitqini danışır. Amma, Hüseyn, bilirsən mən Qurbanov yoldaşı nə qədər istəyirəm? Bura bax, mən ölüm gedək, qardaş olaq. Ədə, dost yolunda məni bir adam öldürsə, sən öl, qalxıb ona güldən ağır söz deməərəm. Hə, sən nə deyirdin? Dayın sənə nə tapşırıb?

Hüseyn. Mən nə bilim ey. Deyir gərək iki günə kimi laborant Rəhiləni yola gətirib alasan.

Gülümov. Gözəl fikirdir. Sən öl, Hüseyn, əntiqə fikirdir. Al deyir, al!

Hüseyn. Mənim almağımnandır bəyəm? Qız gələnmi?

Gülümov. Gələr də, canı da çıxar. Uça-uça gələr. Bir kəlmə desən ki, yoldaş Qurbanov tapşırıb, borcudur yerinə yetirsin. Hökumətdən məvacib alır.

Hüseyn. Elə şey olmaz, əşi. Məvacibi ona ərə getmək üçün vermirlər ki?

Gülümov. Bəs məvacibi kim verir? Qurbanov yoldaş! Onun qolu olmasa, bank bir qəpik də verməz. Odur bax, deyəsən, Rəhilə gəlir. Aç sözünü de, qorxma.

Hüseyn (*özünü düzəldir*). Deyirsən gəlir?

Gülümov. Gəlir, gəlir, cürətli ol!

Hüseyn. Sən yanımda dayan, onu görəndə ilişirəm. (*Rəhilə içəri girir*) Rəhilə xanım, salaməleyküm! Dayım mənə bir söz tapşırıb axı. Qoy deyim.

Rəhilə. Burada nə Qurbanov dayıdır, nə də sən bacıoğlu. İkiniz də işçisiniz. Elə söhbətləri evinizdə eləyin.

Hüseyn. O da mənə evdə tapşırıb da. Vallah deməyə də xəcalət çəkirəm.

Rəhilə. Nə olub? Yoxsa yenə taxıla siçan dadanıb?

Hüseyn. Mən nə bilim ey. Dayım deyir ki...

Gülümov. Hə, qurtar görək, dayın nə deyir? Utanır ey...

Rəhilə. Niyə utanırsan ki?

Hüseyn. Dayım deyir ki... dayımın ürəyi toy istəyir ey...

Rəhilə. İstəyir, eləsin də...

Gülümov. Qurbanov yoldaş toyu özü üçün istəmir ki, bunun-çün deyir.

Rəhilə. Daha mən neyləyim ki...

Hüseyn. Necə neyləyim? Sənsiz toy olmaz ki...

Rəhilə. Axmaq-axmaq danışma! Mənim boş yerə sərf eləməyə vaxtım yoxdur.

Çıxır.

Hüseyn. Getdi. Gördün, Gülümov? Ağzımı açmağa qoymadı.

Gülümov. Yassar! Zalımın qızı hay eləməmiş barıt anbarı kimi partlayır.

Hüseyn. Bəs mən necə eləyim? Dayım abrımı tökəcək.

Gülümov. Onun əlacı Səməndərlidədir. Kişi, arvad işində professordur. Sənə qızı yola gətirməyin üsulunu öyrədər. Sən bir onu gör.

Çıxır.

Hüseyn. Bəs mən əskik gələn taxılları neyləyəcəyəm?

Səməndərli içəri girir. Əlindəki yanğınsöndürənləri aparıb sütunlardan asmağa başlayır.

Səməndərli. Yanğın bombası düşən kimi: bir – al əlinə silah, qüvvət versin ilahi, iki – yanğın düşən yerə tuşla, üç – atəş!

Hüseyn. Yanğın bombası elə bu saat mənim ürəyimə düşdü, gəl söndür görək, necə söndürürsən?

Səməndərli. Nə olub, ey idarəmizin taxıl siçanı? Yaxın gəl, beynin xarab olubsa, yamaq vurum.

Hüseyn. Beynim yox, ürəyim yırtılıb.

Səməndərli. Yox, səhvin var. Başın yırtılıb. Ona görə də hava bulud olan kimi ürəyinə bir şey dammağa başlayır. Deyirlər, dayın yuxarılara doğru qalxır. Bəlkə ona görə həyəcan keçirirsən?

Hüseyn. Yox, hər şey öz yerində cağbacağdır. Ancaq səndən asılı bir işim var. Deyirlər, sən bir vaxtlar artist olmusan.

Səməndərli. Əlbəttə, olmuşam. İntriqaya salıb çıxartdılar. Ancaq yenə deyirəm ki, həyat müvəqqəti, incəsənət daimidir.

Hüseyn. Qurban olum sənə, o sözü bir mənə də öyrət.

Səməndərli. Necə? Sən də artist olmaq istəyirsən? Gəl bir neçə günün içində səni məşhur artist eləyim.

Hüseyn. Yox, işsiz qalmamışam ki, artist olum. Mənə bir neçə sürüşkən söz lazımdır.

Səməndərli. O sözlər sənin nəyinə lazımdır? Ey qaranlıq keçmişin mənfur heykəli.

Hüseyn. Bir qıza deyəcəyəm. Dayım tapşırıb.

Səməndərli. Hə, qız, qadın... Qadınlar... Cinayət sizin adınızdır. Hansı qıza deyəcəksən?

Hüseyn. Sənə deməli deyil.

Səməndərli. Sus, ey taxıl yeyənlərin ən böyüyü!

Hüseyn. Bura bax, yüz dəfə sənə demişəm ki, mənimlə taxıl zarafatı eləmə.

Səməndərli. Bəs mən qızı tanımasam, sənə söz öyrədə bilərəmmi ki?

Hüseyn. O qız ki, mən almaq istəyirəm, ona heç söz də kar eləməz. Adamı o özü söz içində basdırar. Mənə sözdən çox, üsul lazımdır. Qızın gözünü bağlamaq üsulu.

Səməndərli. Hə, bu barədə Şekspir deyir ki...

Hüseyn. Şekspir kimdir? ZAQS müdiridir?

Səməndərli. Yox, Şekspir dahidir. Biz onun yanında fındıq qabığıyıq!

Hüseyn. Mənim evlənməyimlə o kişi də maraqlanır?

Səməndərli. Yox, mən arvad məsələsində yalnız Şekspirin üsullarını işlədirəm.

Hüseyn. Onda mənə öyrət, mən də işlədim də...

Səməndərli. Öyrədərəm, niyə öyrətmirəm ki? Sənə üç seçmə üsul öyrədəcəyəm. Ucuz, hərəsi iki yüz manata!

Hüseyn. Əşi, sən də bahalıq salmasana... O qiymətə bazarda üsul yoxdur ki?

Səməndərli. Özün bil. Üç üsul, biri iki yüz manatdan. Tez ol, qəti cavab ver.

Hüseyn. Biri yüz əllidən. Axı bir nəzərdə tut ki...

Səməndərli. Yox, heç bir şey nəzərdə tutmayacağam. Xudahafiz, ey mənim tərlan atım!

Getmək istəyir. Hüseyn qoymur.

Hüseyn. Dayan, dayan, ikisini öyrət bəsdir.

Səməndərli. Elə isə pulları çıxart, görək.

Hüseyn. Pulum indi yoxdur, sabah...

Səməndərli. Nisyə bəşəriyyətin ən böyük düşmənidir. Eşitməmisənmi, bədbəxt adam?

Hüseyn. Sən öl, sabah verərəm. İndi yanımda yoxdur.

Səməndərli. Yox, əzizim. Sən öl vaxtı keçib. Qabaqda sən öl deyirdin, cavabında sənə bir at bağışlayırdılar. İndi sən öl deyirsən, cavabında deyir, özün öləsən, məsələn, bu saat ən gözəl nəqliyyat vasitəsi maşın deyil, təyyarə deyil, xoruzdur. Xoruzun quyruğunu göstər. Səni əl üstündə aparsınlar. Başa düşdünmü, ey taxıl aşiqi?

Hüseyn. Yenə dedi taxıl! Bura bax, bu sən öl, indi yanımda yoxdur.

Səməndərli. Yenə dedi "sən öl". Nisyə girməz kisəyə! Başa düş!

Hüseyn. Yaxşı daha, qaçmırıq ki? Sabah verərəm.

Səməndərli. Sabah da üsulları öyrənərsən. Pul cibimə girməmiş ağzımdan üsul çıxmaz.

Hüseyn. Deməli, gedim pulları gətirim?

Səməndərli. Get gətir, çünki bütün aşiqlər gətiriblər.

Hüseyn. Mən getdim.

Səməndərli. Get, ey mənim oynaq atım.

Hüseyn çıxır. Qənbər çiyninə xurcun içəri girir.

Qənbər. Ya Allah, Səməndərli, ürəyimdə səninlə danışırdım, nə yaxşı rast gəldik.

Səməndərli. Qənbər? Üzünü görək. Gün hardan doğub, ey mənim gözümün işığı.

Q ə n b ə r. İki-üç günə gözünün işığı çəkilər, onda səninlə danışaram.

S ə m ə n d ə r l i. Sən hər zaman xeyir xəbərlər müjdəçisi olmusan.

Q ə n b ə r. Xeyir deyil, şərdir. Yaxın gəl, burada adam yoxdur ki?

S ə m ə n d ə r l i. Bura bax, sən, deyəsən, zarafatı doğruya çevirdin. De görək, nə olub?

Q ə n b ə r. Nə olacaq ki? Əlli-ayaqlı gedirik.

S ə m ə n d ə r l i. Əlli-ayaqlı?

Q ə n b ə r. Hə.

S ə m ə n d ə r l i. Gedirik?

Q ə n b ə r. Bəs necə?

S ə m ə n d ə r l i. Mən getmirəm. Vaxtım yoxdur. Başa düşdünmü?

Q ə n b ə r. Özün bil. İşimiz məhkəmədədir. Yəqin bu gün-sabah sənə dəvətnamə gələr.

S ə m ə n d ə r l i. Dizlərim taqətdən düşdü. Ədə, Allahsız oğlu, nə bəd xəbər gətirdin. Demədim mənə haram düşmür? Mən bu vaxta kimi məhkəmə qapısı görməmişəm.

Q ə n b ə r. Görərsən, itələyib salarlar. Sənə nə oldu?

S ə m ə n d ə r l i. Boğazımda nə isə bir şey ilişib qaldı. Nə yuxarı gedir, nə aşağı. Oradan bir stəkan su ver.

Q ə n b ə r. Su vaxtı deyil, məhkəmədə bir tanış tap, işləri ləğv elətdir. Sənin əlindən elə işlər gəlir, a kişi, bir cavab ver görək.

S ə m ə n d ə r l i. Əşi, müsəlman deyilsən? Oradan bir stəkan su versənə. Su da talon ilə deyil ki?

Q ə n b ə r (*ona su verir*). Al, əlindən bir iş gələcək, ya yox? Quyruğumuz qapı arasındadır, qapını açıb bizi qurtara biləcəksənmi?

S ə m ə n d ə r l i. Haradan bilirəm ki? Məhkəmə adı eşidəndə ürəyim payız yarpağı kimi əsir.

Q ə n b ə r. Yaxşı, yaxşı, gələn var. Söz aramızda qalsın. Özünü yığışdır. (*Gülümov içəri girir*)

G ü l ü m o v. Qənbər? Xoş, beş, on beş. Rəisdən bə xeyir...

Q ə n b ə r. Bə xeyr, yoldaş Gülümov, bə xeyr. Vacib bir iş üçün sizin yanınıza gəlmişəm.

G ü l ü m o v. Əcəb eləmisən. Aşna aşnanın yanına gələr də. Otur görək. Xurcunu yerə qoy, çiynində saxlama.

S ə m ə n d ə r l i. Yoldaş Gülümov, bu gün bir dəstə yanğınsöndürən almışam. Sçotlarını gətirəcəyəm.

G ü l ü m o v. Səməndərli, yanğınsöndürənə çox güc vermə. Onsuz da MPVO-nun xərci qudurub mayanı yeyib.

S ə m ə n d ə r l i. Müharibədir, yoldaş Gülümov, hava hücumundan müdafiəyə hazır olmaq hər bir vətəndaşın borcudur. Düşmən göydən bomba tökəndə altına smetanı tutmayacaqsan ki?

Çıxır.

G ü l ü m o v. Afərin. Görürsən, Qənbər? Aşnan nə canfəşanlıq eləyir? Müharibə qurtarır, bu hələ indi işə başlayıb.

Q ə n b ə r. Artistdir də.

G ü l ü m o v. Hey, get, dolangilən xamisən hənuz, püxtə olmağa çox səfər gərək. Bizim başımız çəkənin yarısı ona qismət olsaydı, indi yəqin dağa-daşa dırmaşardı. Hə, necə oldu məhkəmə məsələsi, biryolluq eləyə bildin?

Q ə n b ə r. Hər yandan əlim üzülüb, Gülümov, bir bu Səməndərliyə ümidim qalıb. Görək, bir iş çıxarda biləcəkmi?

G ü l ü m o v. Necə? Boynuna götürüb?

Q ə n b ə r. Gözünü bir az qorxuzmuşam. Demişəm, səni də çağıracaqlar. Cəhənnəmə gedən özünə yoldaş aparar axı. Bu xurcunu qoyun bir yana.

G ü l ü m o v. Nə zəhmət çəkmisən, bəri ver görək.

Q ə n b ə r. Zəhmət niyə olur ki? Ehtiyatlı olun, yumurta sınıb yağı xarab eləyər.

G ü l ü m o v. Bu cür yumurta ilə yağın içi dolu minnət olar. De görək, sözünün canı nədir?

Q ə n b ə r. Sözümün canı budur ki, arabalar qalıb qapının ağzında, buraxmırlar.

G ü l ü m o v. Kimin nə ixtiyarı var sənin arabalarını qapının ağzında qoya. Gülümov ölübdür ki, kolxozçu boynunu burub qapıda dayanısın? Faktura hanı, ver bəri görüm.

Q ə n b ə r. Budur burada. Ancaq fakturada səhv var. Yarım ton taxıl əskik yazılıb.

G ü l ü m o v. Bu saat yoxlayaq. Kolxozçunu incitmək... İncitmək... Hə, yox, deyəsən, kolxozçu bizi incidir. Bir kilo yağa yarım ton buğda? Bu lap Molla Nəsrəddin alış-verişi olar ki.

Q ə n b ə r. Sən məni lap utandırdın, Gülümov. Xəcalət çəkdim.

G ü l ü m o v. Xəcalət çəkməkdənsə, zəhmət çək, əlini cibinə at.

Q ə n b ə r. Xəcalət ona görə çəkdim ki, mətləbi əvvəlcədən açmadım. O xurcundakı təkcə yumurta ilə yağ deyil. Altda qəzetə bükülmüş əmanət var.

G ü l ü m o v. Hə, o ayrı maddə. Deynən ki, xurcunla gəlmişəm, mən də başa düşüm də. (*Pulu çıxardıb sayır*) Bazarda taxıl düşüb deyəsən.

Q ə n b ə r. Canın üçün, Gülümov, ayrı cürə sərf eləmir. O taxılı bazara yeridincə mən yeddi köynək tər tökürəm.

G ü l ü m o v. Bəs bizimki bacamızdan tökülür? Altı nömrəli forma məni bir parça çörəyə möhtac eləyib. Murad aparacaq Rəhilənin yanına, Rəhilə aparacaq Qurbanovun yanına, Qurbanov da hər şey ilə doyan deyil. Uzun əhvalatdır. Başımızdan olsaydı, yaxamız qurtarardı.

Q ə n b ə r. Necə bəyəm? Gedir?

G ü l ü m o v. Raykoma çağırdılar. Deyəsən, mərkəzə aparırlar. Müxtəsər... bu səfərlik məcburuq razı olaq. (*Pulları cibinə qoyur*) İndi oldum sənlə qardaş, dostam sənlə qəbirə qədər. Neyləyim aşna, qazanmaq üçün gərək güzəştə gedəsən. Düz deyirəm, ya yox?

Q ə n b ə r. Sağ ol, əziz yoldaş! Bu sözlərinin qiyməti yüz ton taxıldan artıqdır. Həkimanə sözlərdir. İcazə ver mürəxxəs olum.

G ü l ü m o v. Sağ ol. Xurcunu sonra apararsan. İndi boşaltmağa vaxt yoxdur.

Q ə n b ə r. Əstəğfürullah... Xurcun söhbəti ola bilməz. Xurcunu məxsus sənin̆çün toxutdurmuşam, güllü-çiçəkli, adına layiq, deyir, gül həmişə bər dəsti gül başəd.

G ü l ü m o v. Nə ki, dər dəst zir-zibil başəd. Sağ ol. Qənbər, sənin kimi adamları görəndə köhnə zəmanə yada düşür. İndiki zəmanənin gülü iclasdır, çiçəyi də şəxsi tənqid.

Q ə n b ə r. Mürəxxəs olum.

G ü l ü m o v. Gözüm üstə yerin var.

Q ə n b ə r çıxır. Gülümov xurcunu götürüb getmək istədikdə F i r u z ə əlidolu içəri girir. Gülümov xurcunu stolun altına qoyur.

F i r u z ə. Of, lap əldən düşdüm. Gülümov, bunları tut görüm.

G ü l ü m o v. Firuzə xanım? Maşallah, dünyanı alıb gətirmisiniz ki...

F i r u z ə. Dünya haradandır? Özgələri alanın yarısını bizə vermirlər. Kül bizim Qurbanın başına!

G ü l ü m o v. Allah eləməsin, Firuzə xanım, diliniz necə gəlir?

F i r u z ə. Yaltaq olma, sən Allah! Kül bütün kişilərin başına, içində də bizim Qurbanın. Ağzı yox, dili yox. Yenə o gərək gecə-gündüz mənə şükür eləsin ki, ordan, burdan dartıb gətirirəm. Lap yorulmuşam. Bu Səməndərli də hər gün mənə kömək eləyərdi, bu gün bilmirəm harada itib-batıb. O xurcundakı nədir, Gülümov?

G ü l ü m o v. Heç, kolxozun hesabdarı gətirib, onların illik atçotlarıdır.

F i r u z ə. İllik atçotu xurcunda gətirmək təzə çıxıb?

G ü l ü m o v. Çoxdur, ona görə xurcuna doldurublar (*Xurcunu dala itələyir*) İstəyirsiniz sizə kömək eləyim, şey-şüyünüz çoxdur.

F i r u z ə. Aralığa söz qatma! Çıxart görək, nə bəzəkli xurcundur.

G ü l ü m o v. Vallah, Firuzə xanım, əmanətdir, yoxsa, qurbandır sizə!

F i r u z ə. Allah eləməsin. Mən xurcunu neyləyirəm? Çıxart stolun üstünə qoy, naxışına baxım. (*Gülümov xurcunu stolun üstünə qoyur*) Pəh, əcəb toxuyublar.

G ü l ü m o v. Tapşıraram bir belesini toxuyarlar sizinçün.

F i r u z ə. Nəyimə lazımdır? Xurcun görməmişəm? Of, dükan-dükan gəzməkdən lap yoruldum. Qıçlarım qırılır, bir oturum. (*Xurcunun üstündə oturur*)

G ü l ü m o v. Ay, ay, xurcunun üstündə oturma, ay Firuzə xanım, dur.

F i r u z ə. Oturanda nə olar ki? Kağız-kuğuzdur da... Deyəsən, altımda bir şey xırıldayıb sınır, bu nədir? Ay Gülümov, atçotlar sınır ki... İllik atçotu yumurtaya yazıblar.

G ü l ü m o v. Hayıf, hayıf, yumurtalar sındı, yağ da batdı, hamısı da batdı... Bəs indi mən bunu neyləyim?

F i r u z ə. Mənə ver görüm, onu sən təmizləyə bilməzsən...

G ü l ü m o v. Əmanətdir, Firuzə xanım!

F i r u z ə. Bəri ver görüm, sınmış yumurtanı aparıb neyləyəcəksən? (*Xurcunu dartışdırırlar*)

G ü l ü m o v. Yoldaş Qurbanov kənddən təzə yumurta gətirib, mən özüm evinizə apardım.

F i r u z ə. Necə? Qubuş gəlib?

G ü l ü m o v. Bəli, bir saat bundan qabaq gəlib.

F i r u z ə. Bəs bunu mənə niyə demirsən? Evə getdi?

G ü l ü m o v. Xeyr, raykoma getdi.

F i r u z ə. Nə? Raykoma getdi? Bəs şeylər? Gətirdiyi şeylər necə oldu?

G ü l ü m o v. Evə apardılar.

F i r u z ə. Denən evim yıxıldı da... Qulluqçu yarısını daşıdı bazara.

Güclə dartıb xurcunu aparır. Gülümov da dalınca gedir.
M u r a d və R ə h i l ə içəri girirlər.

R ə h i l ə. Bu kitablar nədir, Murad? Oxuyursan?

M u r a d. Kitabları soruşursan? Kitabxanaya qaytarmalıyam, yadım dan çıxıb qalıb burada.

R ə h i l ə. Ver baxım. İki-üç günə qaytararam, bunları mən oxumamışam.

M u r a d. Hə?

R ə h i l ə. Hə.

M u r a d. Əcəb söhbət eləyirik, "hə"dən başqa bir şey başa düşmürəm.

R ə h i l ə. Əsas məsələ də o "hə"dədir də... (*Yazıb ona verir*)

M u r a d. Hə, bu ayrı məsələ. Kitablar sənə qurbandır, Rəhilə. Oxu, sonra kitabxanaya qaytararıq.

Ə l i k i ş i içəri girir.

Ə l i k i ş i. Bağışlayın, salaməleyküm.

R ə h i l ə. Salam.

Əli dayı. Buyur görək.

Ə l i k i ş i. Buyruq sahibi olasan. İcazə verin, biədəblik də olsa, hüzurunuzda oturum. Bütün dünya düzəlsə, Muradın qulağı ilə mənim qıçım düzələn deyil. Murad dünənkinə baxanda bu gün necəsən?

M u r a d. Yoxdur, çəkən deyiləm.

Ə l i k i ş i. Elə bilir mən ondan od istəyirəm, oda nə gəlib? Qurban olum çaxmaq daşına. Rəhilə xanım, əhvali-şərifiniz?

R ə h i l ə. Bu gün kefin lap kökdür, Əli kişi!

Ə l i k i ş i. Kefim niyə kök olmasın? Bir yandan bu orden ki, bizə veriblər, adamı dağ boyda eləyir. Bir yandan da bu gün oğlumdan kağız almışam. Kağız əlimə çatan kimi, elə bil, məni qaldırıb qoydular göyün yeddinci qatına.

R ə h i l ə. Bəs kağızı dünən almışdın ki.

Ə l i k i ş i. Dünənki böyük oğlumdan idi. Bunu kiçiyi yazır.

R ə h i l ə. Sənin neçə oğlun cəbhədədir ki?

Ə l i k i ş i. Üç oğlum, bir də qızım. Qızım burada arvad doğuzduran idi. Götürüb göndərdilər cəbhəyə.

R ə h i l ə. Oğlun nə yazır?

Ə l i k i ş i. Nə yazmır? Sən onu soruş haraları görməyib? Ayağı dəyməyən yer qalıb? İndi də qırmanıyadadır.

M u r a d. Ay Əli dayı, bir az bərkdən danış, biz də eşidək.

Ə l i k i ş i. Murad, məndə o səs hardandır? Sənincün gərək yazasan, məndə də o hövsələ yoxdur.

M u r a d. Rəhilə? Nə deyir o?

R ə h i l ə. Deyir ki, oğlumdan kağız almışam.

M u r a d. Maaşımı az almışam? Nə yazılıb onu vermişəm. Davan var, get Gülümovun yaxasından yapış.

R ə h i l ə. Ay-hay... karın kölnündəki buna deyərlər ha...

Ə l i k i ş i. Sən bu Muradla çoxdan tanışsan, Rəhilə xanım?

R ə h i l ə. Müharibədən qabaq iki il bir idarədə qulluq eləmişik. İndi də təsadüf bizi bir yerə salıb.

Ə l i k i ş i. Yaxşı oğlandır. Qulağı da açılar. Allah qoysa, birbirinizdən ayrılmazsınız. Mənimkilər də gəlsin. Toyu toya qatışdırarıq.

R ə h i l ə. Hansı toydan danışırsan, Əli dayı?

M u r a d. Toy? Kimin toyudur deyirsiniz?

Ə l i k i ş i. Aha, toy söhbəti olan kimi gör nə tez eşitdi? Yaxşı, mən getdim, növbəmin vaxtıdır. Rəhilə, qızım, gəldim, səndən bir əhvalatı xəbər alam. Doğrudurmu ki, Qurbanovu buradan götürüb mərkəzə böyük işə aparırlar?

R ə h i l ə. Bilmirəm, eşitməmişəm.

Ə l i k i ş i. Elə bu saat danışdılar. Guya bu gün raykoma da onunçün çağırıblar. Elə olsa, nə yaxşı olar!

R ə h i l ə. Yəni Qurbanov sizin o qədər xoşunuza gəlir?

Ə l i k i ş i. Xoşuma gəlməkdən demirəm. Başımızdan rədd olar da... Səncigəzi bura təyin eləyələr, nə olar?

R ə h i l ə. Ay Əli dayı, məndən direktor olmaz. Mənim işim laboratoriyadır.

Ə l i k i ş i. Niyə olmur? Bircə bu başımızdan ola, vallah, bütün rayon sənin tərəfdarındır.

A ğ a z a d ə içəri girir.

A ğ a z a d ə. Qurbanov haradadır? Hələ kənddən gəlməyib?

R ə h i l ə. Gəlib, elə indicə raykoma getdi.

A ğ a z a d ə. Bəs mən raykomdan gəlirəm, orada yox idi. Hə, yəqin stansiyada bir az ləngiyib. Azsovxoztrestin skladında onun balaca bir stansiyası var.

Ə l i k i ş i. Bəs sənin salamın harada qalıb, ay yoldaş Ağazadə? Bəlkə evdə qoymusan?

A ğ a z a d ə. Salaməleyküm, Əli dayı. Salamı mən həmişə yanımda gəzdirirəm, evdə niyə qoyuram ki? Sizə təqdim eləmək yadımdan çıxıb.

R ə h i l ə. Nə var, Ağazadə? Qurbanov nə təcili lazım olub?

M u r a d. Rəşid? Beş qardaşı vur bura görək. Zəhmət çəkib söz demə, onsuz da eşitməyəcəyəm.

A ğ a z a d ə. Qulağın neçədir?

M u r a d. Saat necədir? Motoru xarab olub. Qulağım kimi o da işləmir.

A ğ a z a d ə. Əşi, açdır bu zəhrimarı görək. Ürəyimiz darıxır. Mən axı bununla uşaqlıqdan dostam. O gün qulaq doktorundan soruşuram ki, bu Muradın məsələsi necə olacaq? Deyir, tez yaxşı olar!

Ə l i k i ş i. Bəs, bu Qurbanovun məsələsi necə? O da tez yaxşı olar?

R ə h i l ə. Əli dayı eşidib ki, onu mərkəzə göndərirlər.

A ğ a z a d ə. Nə? Mərkəzə? Ay-hay... Birisini deyir, kəndə qoymurlar – kəndxudanın evini soruşurmuş. Onu bu saat raykomda bərk axtarırlar. Gedim, bəlkə şərab anbarında tapdım. Xudahafiz, Əli dayı! Xudahafizim də yanımdadır ha... gördün?

Ə l i k i ş i. Xudahafiz, bala, tez gəl.

A ğ a z a d ə. Mənim bu ceyran gözlərim üstə.

Çıxır.

Ə l i k i ş i. Bağışlayın. Qulluğunuzdan mürəxxəs olum.

R ə h i l ə. Murad, kitabları götürdüm.

M u r a d. Yox, mən hələ bir az işləyəcəyəm.

Ə l i k i ş i. Ay eşitdi ha...

M u r a d. Əli dayı, maaş barədə məndən incimə.

Ə l i k i ş i. Əşi, sən də tutmusan bu maaşın xirtdəyindən. Uşaqlar göndərən mənə bəsdir. Mən burada maaş üçün işləmirəm ki? Belə vaxtda, işsiz dayanmaq bir kişilik deyil. Qərəz ki, səni başa salmağa mənim hövsələm çatmaz.

Rəhilə ilə Əli kişi çıxırlar. G ü l ü m o v içəri girir.

G ü l ü m o v. Səhər-səhər xurcun da belə getdi. Murad, kağızlara Qurbanov qol çəkibmi? A Murad, əşi, bura bax!

M u r a d. Mənimləsiniz, yoldaş Gülümov?

G ü l ü m o v. Deyirəm, kağızlar hazırdırmı?

M u r a d. Kim yazır? Nəyi yazır?

G ü l ü m o v. Yazmır... yazmır. Dayan, sənin çün asan yol tapmışam. (*Cibindən hazır yazılı kağız çıxarıb göstərir*)

M u r a d. Kağızlar?

G ü l ü m o v. Hə.

M u r a d. Yox, qol çəkməyib.

G ü l ü m o v. Onda al bunları da. Hamısına bir yerdə bu gün qol çəkdir. (*Gətirdiyi qovluqları ona verir*)

M u r a d. Bunları mən neyləyim?

G ü l ü m o v. Ərit suyunu iç! (*Yenə yazılmış kağız göstərir*)

M u r a d. Qol çəkməyə?

G ü l ü m o v. Hə.

M u r a d. Yaxşı. Onda o birilərini də hazırlayım. Gələn kimi verim, qol çəksin.

Qovluqları alıb çıxır. Qumru içəri girir.

G ü l ü m o v. Qumru xanım? Sizə kisə-kisə hörmət və ehtiram!

Q u m r u. Təşəkkür eləyirəm. O qədər taxıl ilə məşğul olmusunuz ki, hörməti də kisə ilə hesab eləyirsiniz.

G ü l ü m o v. Peşəmiz nədir ki? Biz qızıl kimi sarı buğdanı yığmasaq, camaat zəfəran kimi sarı buğda çörəyi yeyə bilməz ki. El anasıyıq da.

Q u m r u. Yenə burada müdirin bülbülü hansı nəğməni oxuyurdu?

G ü l ü m o v. Yemək və ərzaq nəğməsini oxuyurdu. Onun ayrı bir mahnısı yoxdur ki. Müdirin bülbülünün məhəbbəti uçub-uçub qondu mənim xurcunumun üstünə. Gül kimi xurcun göz açıb yumunca o taylıq oldu.

Q u m r u. Ay Gülüm, sənin də işin xurcundur... Mən də sənin çün müdirin arvadı deyiləm ki. Zəhləm ondan gedir. İşi-gücü yeməkdir.

G ü l ü m o v. Arvadın yemək sevəni yaxşıdır, Qumru xanım! Heç olmasa, o yeyəndə kişiyə də ucundan-qulağından düşər.

Q u m r u. Qurbanov haradadır?

G ü l ü m o v. Qurbanov ağzını açır səndən danışır. Özü də arvadının əlindən zara gəlib. İcazə ver, səni bu barədə şefliyə götürüm.

Q u m r u. Ehtiyacım yoxdur. Mən vasitə ilə ərə gedən qızlardan deyiləm. Xəyalın ayrısına getməsin.

Gülümov. Gör sən məni necə səhv başa düşdün? Mən vasitəçilik eləmirəm ki. Əsl həqiqəti deyirəm. Özü də bu yaxınlarda təşrif aparır.

Qumru. Necə təşrif aparır? Hara gedir?

Gülümov. Hələlik naməlumdur. Təcili raykoma çağırdılar. Yəqin vəzifəsini böyüdüb, Bakıya göndərəcəklər.

Qumru. Of, Bakı, Bakı, kim ora gedirsə, xoşbəxtdir. Bircə bu payız gəlsin. Mütləq gedib həkimlik institutuna girəcəyəm.

Gülümov. Bakıya tək getməyi mən sizə məsləhət görmürəm. Gərək elə gedəsən ki, ömürlük heç bir şeyə ehtiyacın olmasın. Ev almaq lazımdır? Lazımdır. Evin içini düzəltmək lazımdır? Lazımdır. Gərək bir məclis açasan ki, şaq-şaq şaqqıldasın.

Qumru. Bəxtəvər, sən də məclisdən-zaddan dəm vurursan. Mənim heç bir şey gözümdə deyil. Bircə ev alsaydım.

Gülümov. Dəniz kənarında. İkinci mərtəbədə. Bulvara da balkonu. Qapıda adamlar dayanıb doktoru, Qumru xanımı gözləyirlər.

Qumru. Ay Gülümov ey, maskara eləmə görək. Doktor olanlar məndən artıq deyil ki? Bura bax, Gülümov, mən keçən ilin haqq-hesablarını qurtarıram, amma on iki ton taxıl aformit olunmayıb, qalıb. Bu gün məsələni həll elə ki, rayfo tələsdirir.

Gülümov. On iki ton? Hə, doğrudan ha... Bəs, yaxşı, onu sən bu vaxta kimi dəftərdən keçirməmisən?

Qumru. Necə keçirim ki? Saxta qəbz düzəltmək olar? Yoxsa on iki ton taxıl əskik gəlir?

Gülümov. Bıy, bıy, ayıb deyil, Qumru xanım? Mən Qurbanova deyərəm, o sçotu aformit eləyərik.

Qumru. Özün bil, bu gün-sabah məsələni həll elə, yoxsa atçotları rayfo istəyir, görərlər, sizinçün yaxşı olmaz.

Gülümov. O düzələn işdir.

Səməndərli və Hüseyn içəri girirlər.

Səməndərli. Yoldaş Qurbanov bu saat daxil olacaq.

Gülümov. Hə, necədir? Üzünü gördün? Gülürdü? Fikirli idi?

Səməndərli. Üzünü görmədim. Mən cananı ayaqlarının səsindən tanıyıram.

Qumru. Nə vaxt gedir?

Hüseyn. Hələ o qədər də tez getməz. Gərək təhvil verə axı.

Gülümov. Sən də gedirsən?

Hüseyn. Mənsiz dayım ayağını atmaz ki...

Gülümov. Gör nə böyüdü, dedim, axı. Dedim ki, onsuz dolana bilməyəcəklər. Qurban olum sənə, yoldaş Qurban Qurbanov.

Səməndərli. Yoldaşlar, o içəri girən kimi əl çalarsınız. Adətdir. Səhnəyə çıxana əl çalarlar. Qurbanov da bu gün yeni həyat səhnəsinə qədəm atır.

Qurbanov içəri girir. Səhnədəkilər ona əl çalırlar. Qurbanov təəccüb içərisində dayanır.

Qurbanov. Bu nədir? Əl niyə çalırsınız? Bu müharibə dövründə əl çalmaq nədir?

Səməndərli. Təbrik eləyirik, yoldaş Qurbanov! Nə vaxt yola düşürsünüz?

Qurbanov. Səməndərli? Qəmədiyə çıxartma, bura sənin üçün səhnə deyil. Get bu saat otur mənə yaz görüm bu il idarədə neçə yanğın söndürmüsən?

Səməndərli. Yoldaş Qurbanov! Heç bir dəfə də yanğın olmayıb.

Qurbanov. Budur da. Siz bu cür işləyirsiniz, amma sözünüz mənə gəlir, deyəcəklər ki, yanğın ki, yoxdur, niyə o boyda kişini avara eləyib maaş verirsən? Get bütün illik fəaliyyətini yaz, orda qeyd elə ki, üç-dörd xırda-xuruş yanğın olub, o saat bütün idarədəkilərlə əlbir olub söndürmüşük, yoldaş Qurbanovun rəhbərliyi altında. Başa düşdün? Bu günlər idarəni yoxlayacaqlar, lazım olacaq.

Səməndərli. Yoldaş Qurbanov, yoxlamaya qədər, doğrudan da, yanğın eləyib o saat yenə söndürsək, necə olar? İstəyirsiniz mən bir məşq eləyim.

Qurbanov. Səməndərli, çox uzadıb məni yorma, get mən dediyim kimi yaz. (*Səməndərli çıxır*) Qumru, qurban olum qədəmlərinə. Bir stəkan su ver. (*Qumru çıxır*) Gülümov, sən də get haqq-hesabları yığ bura gətir. Bir çötkəyə vuraq görək nəyimiz var, nəyimiz yoxdur. (*Gülümov çıxır*) Bacıoğlu, yaxına gəl görüm, işlərin necədir?

Hüseyn. Qız yola gəlmir, dayı. Bilmirəm, bu anbarın işi necə olacaq. Bilirsiniz nə qədər taxıl əskik gəlir.

Qurbanov. Bəs, torpaq nə oldu? Mən demədim qat? Mən tapşırmadım, sarsaq?

H ü s e y n. Qatıram, dayı, torpaq ilə onun öhdəsindən gəlmək olmaz ki? Gündə iki-üç vedrədən artıq keçirmək olmur. Siz taxılı buraxanda kisə ilə buraxırsınız. İndicə göndərdiyiniz adam iki kisə apardı.

Q u r b a n o v. O barədə danışma, o vacib iş idi. Sovxoztrestin anbar müdirini tanıyırsan? Ona göndərdim. Lazımlı adamdır. Sən o qızın məsələsini tez elə. Bu gün-sabah almasan, dayı-bacı oğlu bizi qatarlar birbirimizə.

H ü s e y n. Ümidim Səməndərliyədir. Görək onun üsulları kömək eləyəcəkmi?

Q u r b a n o v. Səməndərlidən bərk yapış. Elə işlərdən başı çıxar. (*Gülümov gəlir*) Di get, gözümün qabağında tirlənib dayanma. (*Hüseyn çıxır*) Bura gəl görək, Gülümov, sən ruh doktorusan, mənim ruhumu təcili təmir eləmək lazımdır.

G ü l ü m o v. Xeyir ola, yoldaş Qurbanov? Mətləbi mənə açmaq olmaz?

Q u r b a n o v. Raykoma bizim idarədən siqnal veriblər. Sən bilən bu işi hansı nanəcib eləmiş olar?

G ü l ü m o v. Dayan, dayan, yavaş, ehtiyatla. Heç özünüzü itirməyin, yoldaş Qurbanov!

Q u r b a n o v. Mən özümü itirən deyiləm, Gülümov. Mənim saçım kontrolnı komissiyalarda tökülüb. Ancaq məni maraqlandıran o materialı yazan adamdır. Sən bilən kim olar?

G ü l ü m o v. Materialda nə yazıldığını bilmədinmi?

Q u r b a n o v. Bilmədim. Materialı mənə göstərmədilər. İspalkomun sədri bərk danışırdı. Otuzdurdum, ancaq yoxlama göndərəcəklər. İdarədə işləri təcili qaydasına salmaq lazımdır. İllik atçotları hazırdır?

G ü l ü m o v. İllik haqq-hesabda kəsrimiz var. On iki ton taxıl ilişib qalıb. Qumru tələsdirir, özü də yola gələnə oxşamır. Qorxuram rayfoya xəbər verə, işləri korlaya.

Q u r b a n o v. Çağır, işləri ondan al. İstəyirsən, işdən çıxardaq getsin.

G ü l ü m o v. Yox, olmaz. Məsələ keçib onun əlinə, yumşaqlıqdan başqa əlacı yoxdur.

Q u r b a n o v. Onda bir az parıldayan şeylər göstər, gözləri qamaşsın.

G ü l ü m o v. Ha söz salıram bir şey çıxmır. Vaxt olsaydı, yoldan çıxartmaq olardı. Amma heyf ki, vaxt yoxdur, deyirsiniz, bir-iki günə yoxlayarlar?

Q u r b a n o v. Nə bilim, mən belə başa düşdüm. Bəs, yaxşı, bu Qumrunu neyləyək? Lap dolaşığa düşdük...

G ü l ü m o v. Yoldaş Qurbanov, əlac onun ağzını yummaqdır. Gəlin bircə günün içində tarixi bir iş görün.

Q u r b a n o v. Gülümov, mən tarixi iş görmək üçün ölürəm, de görüm, nədir?

G ü l ü m o v. Bir günün içində Firuzə xanımı boşayıb Qumrunu alsanız, bütün məsələlər həll olunar.

Q u r b a n o v. Əşi, elə şey olmaz. Firuzəni boşamaq olar? Qumru mənə gələr? Bu yaşımda?

G ü l ü m o v. Yaşa nə baxırsınız? Sizin hələ canınız suludur.

Q u r b a n o v. Deyəsən, bu tədbir beynimə batır axı. Arvadım olsa, məni ayağa verməz.

G ü l ü m o v. Özü də gözəl-göyçək qız. Həm ziyarət, həm ticarət.

Q u r Sb a n o v. Yaxşı, işə girişək görək, nə olur?

G ü l ü m o v. İcazə verin, mən bir vasitə tapıb materialda nə yazıldığını öyrənim.

Q u r b a n o v. Öyrənsən pis olmaz. Gör xətt kimin xəttidir. (*Qumru su gətirir*) Ay sağ ol, Qumru! Sənin gətirdiyin su mənim ürəyimə yağ kimi yayılır.

S ə m ə n d ə r l i içəri girir.

S ə m ə n d ə r l i. Yoldaş Qurbanov, yazmışam, hazırdır. Mənim məruzəmə görə, bir ilin içində bu idarə dörd dəfə yanıb təzədən tikilib.

Q u r b a n o v. Dayan, dayan. O cür məruzə üstə mənim atamı dörd dəfə yandırarlar. Qoy bir fikirləşim. Bu cür çətin dəqiqələrdə baş işlətmək lazımdır.

G ü l ü m o v. Yoldaş Qurbanov, yığışaq, məsləhətləşək, bir başdan iki baş yaxşıdır.

Q u r b a n o v. Düz deyirsən, ağıllı məsləhətdir, təcili iclas çığırmaq lazımdır.

S ə m ə n d ə r l i. İclasa! İclasa!

P ə r d ə

İKİNCİ PƏRDƏ

İKİNCİ ŞƏKİL

Taxıl tədarükü idarəsinin kontoru. Hər tərəfdə şəkillər və plakatlar asılmışdır. Çoxlu stol və stul var. Camaat oturub. Q u r b a n o v nitqinə yekun vurur.

Q u r b a n o v. Deməli, yoldaşlar, Vətən müharibəsinin bu qəti ilində və düşmənin məhv olub getdiyi bir zamanda bizim idarəmiz daha da möhkəm olmalıdır. İntriqa eləmək, bir-birindən material vermək əclaf faşistlərin xasiyyətidir. Bizim içərimizdə də eləsi var, meydana çıxardaq və qoymayaq ki, taxıl tədarükatı idarəsi zibilləns in.

R ə h i l ə. İdarə onsuz da zibillidir.

Q u r b a n o v. Bacım, sən hələ cavansan, belə işlərə başını soxma. Sonra sənin tükünü yolarlar. Gözəl saçların var, heyfdir.

R ə h i l ə. Məndən qabaq yolunası çox saçlar var. İdarəni bu şəklə mən salmamışam ki?!

Q u r b a n o v. İdarənin şəkli xoşuna gəlmirsə, yerini dəyişə bilərsən. O ki, qaldı idarənin zibillənməsinə, onda gərək əvvəlcə sizlərdən başlayaq.

R ə h i l ə. Bizlərdən niyə? Başdan başlamaq lazımdır.

G ü l ü m o v. Rəhilə bacı, bir böyük-kiçik tanıyın, eyibdir, axı.

Q u r b a n o v. Eybi yoxdur, Gülümov! Gərək mübahisə ola ki, həqiqət meydana çıxa. Qaldı kimin zibil olması barədə biz qoskontrolda danışarıq.

G ü l ü m o v. Ey kar! İclas qurtardı, dur get banka.

M u r a d. Danışacağam. Bəs necə?

G ü l ü m o v. Gəl görək, gəl, banka gedə-gedə danışarsan. Yoldaş Qurbanov, iclas qurtardı?

Q u r b a n o v. Yox, Gülümov, mən demokrat adamam, sözü var, qoy danışsın. Camaat, qayıdın yerinizə, bu da olsun balaca bir iclas balası. Danış görək.

M u r a d. Söz vermirsiniz verməyin, mən də yazıb xəbər verərəm.

G ü l ü m o v. Danış, danış.

Q u r b a n o v. Camaat material verməyə bəhanə axtarır ha... Danış görək, ürəyimizi üzmə.

M u r a d. Danış hə... Mənim təklifim budur ki, buraxılış vərəqələri müdirin cibində yox, pul vəsiqəsi kimi kassada saxlanılsın. Bu bir, sonra

da ki, anbar qəmsiyə ilə açılıb qəmsiyə ilə bağlansın, çünki Hüseyn hər gələnə anbarı açır.

H ü s e y n. Dayı, mənə söz ver, dayı, mənə söz ver.

Q u r b a n o v. Səməndərli, bu sözləri protokola yazma.

S ə m ə n d ə r l i. Şuluqluq düşdü, yoldaş Qurbanov, iclası bağlayın.

M u r a d. Mənim hələ sözüm var...

Q u r b a n o v. Sözün var, ərizə yaz ver, sonra baxarıq.

R ə h i l ə. Murad, özünə əziyyət vermə. Bunlar sənin kimiləri danışmağa qoymazlar. Sənin danışığın onların ciblərinə zərərdir. (*Haray-huray düşür*)

Q u r b a n o v. Qurtardı. Dağılın işinizə. Rəhilə, qızım, sənin hələ ağzından süd iyi gəlir. Amma adamla süngü davasına çıxırsan. Qızın süngü davasında nə işi var, qız yara bağlayar, xəstəyə baxar. Raykoma material vermisən, sözüm yoxdur. Baxarlar, yoxlayarlar.

Gülümov, Qurbanov və Rəhilədən başqa hamı çıxır.

R ə h i l ə. Material verəni axtarmaqdansa, idarədəki yaramazlıqların qarşısını almaq lazımdır.

Q u r b a n o v. Hə, daha baş apardın. Mən səni sığallayıram, sən məni cırmaqlayırsan! Mənə vəzifə öyrətmək sənin kimi uşaq-muşaqlara qalmayıb. Mən min cür məsul işdə olmuşam. Sənin kimilər mənə öyrətməsinlər.

R ə h i l ə. Elə bu cür işləmisiniz ki, düşüb-düşüb axırıncı pillədə dayanmısınız.

Q u r b a n o v. O da sənin işin deyil. Onsuz da məni tez-gec nərkəzə çağıracaqlar. Mən bu rayonda qalan deyiləm.

R ə h i l ə. Qalmasan da, partbileti burada qoyub gedəcəksən.

Çıxır.

Q u r b a n o v. Görürsən, necə başıma çıxartmışam? Hamısı mənim bu zəhrimar xasiyyətimdəndir. Arvad görəndə yumşalıb mum kimi oluram.

G ü l ü m o v. Materialı bu yazıb, yəqin bilirəm ki, bu yazıb.

Q u r b a n o v. Nə yazıb? Onu mənə de.

G ü l ü m o v. Onu da öyrənmişəm. Yazıb ki... bir az namünasibdir. Hamısı sizin barənizdədir. Ağzıma alıb danışmağa da utanıram.

Q u r b a n o v. De, de, ay Gülümov! Böhtana mən adət eləmişəm. Mənim evimi yıxan böhtan olmayıb?

Gülümov. Yazıblar ki, guya, siz içirsiniz.

Qurbanov. Nə içirəm? Çay içirəm, su içirəm, barjom içirəm?

Gülümov. Xeyr, guya, siz spirtli içkilər içirsiniz, pivə, çaxır.

Qurbanov. Görürsən, Gülümov, böhtandır, ya böhtan deyil? Dünyada hamının məndən zəhləsi gedirsə, mənim də pivədən zəhləm gedir. Yenə deyəydilər araq, deyərdim, hə, onu da az içirdim ha... İndi çox içəcəyəm. (*Acıqla*) Sonra?

Gülümov. Sonra? Sonrası da keçir bəzi xırda-para məsələlərə, taxıl məsələsi var, arvad məsələsi var...

Qurbanov. Nə arvad məsələsi?

Gülümov. Yazıb da... Guya sizin gözünüz Qumrudadır. Nə *bilim, guya öz arvadınız ola-ola... taxıl məsələsini də bununla əlaqələndirib, yaxşı ki, o on iki tondan xəbər tutmayıb...*

Qurbanov. Arvad məsələsində mənim kimi namuslu adam olmazdı, Gülümov! Amma bu söz məni dəyişdirdi. Sən öl Qumrunu alacağam. Acıqla.

Gülümov. Düz deyirsiniz, yoldaş Qurbanov! Almasanız ağzı yumulmaz. Zəhrimar taxıl pis şeydir, hər tonuna azı bir ildən hesab eləyin...

Qurbanov. Heç bilmirəm bu Firuzəni necə başdan eləyəcəyəm. Yaxşı, a Gülümov, deyir qız evində toydur, oğlan evinin xəbəri yox. Bəs Qumru bu işlərə nə deyir? Sonra naz eləyər ha?..

Gülümov. Nazsız qadın olmaz ki, yoldaş Qurbanov. Nazsız qadın, buğdasız anbar – bir şeydir. Amma siz bu qədər məsul işdə olmusunuz, yenə də qadınların xasiyyətini öyrənməmisiniz. Qadın ev kimi bir şeydir. Ev boş olmaz ki... Gərək zinəti olsun. Mükəlləfatı olsun. Siz quru əl ilə balıq tutmaq istəyirsiniz.

Qurbanov. Mən bu saat zinəti hardan alım, ay Gülümov?

Gülümov. O məndə. O məsələni mən düzəldərəm. Bəs hesabdar nəyə lazımdır ki? Bir bu sçotlara baxın.

Qurbanov. Elə şeyləri arxayın vaxtda gətir. İndi başım yerində deyil.

Gülümov. Qumru məsələsində bir az tələsmək lazımdır.

Qurbanov. Bu məsələnin Qumruya nə dəxli var?

Gülümov. Bu kağızlara qol çəkmək Qumru üçün bir mirvari boyunbağı deməkdir.

Qurbanov. Yenə sən başladın? Əşi, hələ birini qurtara bilmirik... Bu lap vicdansızlıq olar axı.

Gülümov. Vicdan, yoldaş Qurbanov, rezin kimi bir şeydir, dartdıqca uzanır. Burada bir-iki ton taxılın söhbəti var. Rəhilə tütubəti artırıb, kolxoz xəbər tutmayıb, mən də dəftərdən keçirməmişəm... Başa düşdünüz?

Qurbanov. Demək, mən sabah Qumrunun boğazında mirvari görəcəyəm.

Gülümov. Sabah nədir, günü bu gün onun razılığını mən şəxsən özüm alacağam.

Qurbanov. Sənə arxayınam. Amma dilinin altına noxud qoy. Mən bir adamam ki, dostluğum da möhkəm olur, düşmənçiliyim də.

Gülümov. Məni işdə sınayıb görərsiniz.

Qurbanov. Gör orada xırda-xuruş var? Bir də evə getmək istəmirəm.

Gülümov. Bu saat. Beş yüz kifayətdir? Yoxsa...

Qurbanov (*pulu götürür*). Hələlik bəsdir. Yaz ayağıma, yoxsa yadımdan çıxar.

Gülümov. Ayıb deyilmi, yoldaş Qurbanov? Mənim canım da sizə qurbandır...

Qurbanov. Mən gedim bir az hərarətimi artırım gəlim. Çağır Qumrunu "hə"sini al ki, mən də arvadla işi qurtarım.

Çıxır. Qumru içəri girir.

Gülümov. Bir dəqiqə əvvəl çıxaydın da. İndicə burada idi. Taxıl da yadından çıxıb, tədarükat da, Qumru deyib dad eləyir.

Qumru. Bura bax, Gülümov, ayıbdır sənin üçün belə sözlər danışırsan. Qurbanov mənim atam yerində kişidir.

Gülümov. Səhvin var, Qumru xanım! Qurbanovun nə yaşı var ki? Hələm-hələm qızın bəxtinə belə adam çıxmaz, adam öz səadətinə göz yumarmı?

Qumru. Bir də bu cür söhbət eləsən, daha məndən yox, özündən küs. Məni ərə verməyə heç kəs səni vəkil eləməyib.

Gülümov. Dünyada yaxşılıqdan yaman şey yox imiş. Qızlar ərə gedəndə sevindiyindən bilmirlər neyləsinlər, bu hələ məndən inciyir də...

Qumru. Vəsiqələr nə oldu? İllik haqq-hesabı tələb eləyirlər axı... Gündə kağız gəlir.

Gülümov. Sən o haqq-hesabların hamısını mənə gətir. Rayon ilə mən özüm danışaram. Balansı da özüm çıxardacağam.

Q u m r u. Daha yaxşı. Onsuz da mənim öz işim tökülüb qalıb.

Çıxır.

G ü l ü m o v. Bura bax, bu, deyəsən, məsələni ciddiləşdirib ha... Qumru xanım!

Dalınca getmək istədikdə, R ə h i l ə və A ğ a z a d ə ilə qarşılaşır.

R ə h i l ə. Yoldaş Gülümov, axı belə olmaz. Bu cinayətdir.

G ü l ü m o v. Böyük səhv eləyirsiniz, yoldaş. Gülümov familiyası ilə cinayət sözünü yan-yana qoymaq özü cinayətdir. Nə olub ki?

R ə h i l ə. Nə olacaq? Laboratoriyadan keçməmiş taxıl qəbul eləmisiniz.

G ü l ü m o v. Mənim xəbərim yoxdur. Dayı məntəqənin müdiri, bacıoğlu anbardar. İstədiklərini eləyirlər. Yoldaş Ağazadə mənim yanıma gəlib? Bəlkə bir sözünüz var.

A ğ a z a d ə. Yox, mənim sizinlə hələlik bir sözüm yoxdur. Ancaq maraqlı burasıdır ki, bu kağızlarda sizin də imzanız var.

G ü l ü m o v. Siz bilmirsiniz, amma Rəhilə xanım çox yaxşı bilir, bu idarədə hakimi-mütləq Qurbanovdur. O deyəndən sonra mən etiraz eləyə bilərəm? Hesabdaram. Məni elə itirə bilər ki, Gülümov familiyası dünya üzündən götürülər.

Çıxmaq istəyəndə, işləri gətirən Q u m r u ilə qarşılaşır.

Q u m r u. Bu da haqq-hesablar, yoldaş Gülümov.

G ü l ü m o v. Mənə ver.

Çıxır.

A ğ a z a d ə. Salamlar olsun, Qumru yoldaşa!

Q u m r u. Salam, yoldaş Ağazadə. Rəhilə, məndən nümunə istəmişdin ha, budur tapmışam.

R ə h i l ə. Bu lap əla taxıldır, görürsən, Rəşid?

Q u m r u. Aparanda da, seçib yaxşısını aparırlar.

R ə h i l ə. Bunları mən saxlayım. Laboratoriyada yoxlayaram.

A ğ a z a d ə. Amma hələ bazara çıxartmayıblar. Çıxarılan kimi tutulacaqlar.

R ə h i l ə. Tez qurtar, Rəşid! Yoxlamanı tez qurtar. Raykom məsələni həll eləsin.

A ğ a z a d ə. Bəs sizin yeriniz-yurdunuz haradadır, Qumru xanım? Mən sizinlə bir-iki kəlmə söhbət eləmək istəyirəm.

Q u m r u. Mənim yurdum var ki, yuvam da olsun. O otaqda bir qırıq stolum var.

A ğ a z a d ə. İki kəlmə söhbət eləmək olar?

Q u m r u. Buyurun.

Çıxırlar. M u r a d içəri girir.

M u r a d. Rəhilə, sənin üçün bir dəstə məxməri bənövşə tapmışam.

R ə h i l ə. Murad, sən bu çiçəkləri haradan tapırsan?

M u r a d. Çox gətirərəm ha... qorxuram güləsən.

R ə h i l ə. Gülmərəm, qorxma. Mən də çiçəkləri çox sevirəm.

M u r a d. Rəhilə, bu kağızlara bir bax!

R ə h i l ə. Bunlar nə kağızlardır?

M u r a d. Çığırsan da eşitməyəcəyəm. Yaxşısı budur mənə diqqətlə qulaq as. Keçən ildən qalma kağızlardır, Gülümova ha deyirəm, bu gün-sabaha salır.

R ə h i l ə (*kağızlara baxır*). On iki ton taxıl təhvil verilib, hələ keçən ildən bəri dəftərə düşməyib. Qəribə işdir. Qoy bir Ağazadəyə göstərim.

M u r a d. Xəbərim, xeyr, mənim xəbərim yoxdur.

R ə h i l ə. Onu demirəm, deyirəm bu kağızları göstərim, bu saat qayıdıram.

Çıxır. Ə l i k i ş i içəri girir.

Ə l i k i ş i. Murad? Təəccüblü iş var. Qurbanov haradadır?

M u r a d. Nə deyirsən, Əli dayı? Xəlvət söz danışmırsan ki? Bərkdən de!

Ə l i k i ş i. Qurbanovu soruşuram. Müdiri, müdiri.

M u r a d. Diri, diri, nəyi diri, diri? Qoyunu?

Ə l i k i ş i. Əşi, nə qoyun? Ölüsü tapıldı, qaldı dirisi.

M u r a d. Əli dayı? Sənin ağzın heç söz tutmur ki. Yaz məktub vasitəsilə bildir.

Ə l i k i ş i. İşim-gücüm qurtarıb da... (*Rəhilə içəri girir*) Ay Rəhilə, qızım, Qurbanovun yerini mənə göstər.

R ə h i l ə. Nə olub ki, Əli dayı! Qurbanovu neyləyirsən?

Ə l i k i ş i. Əli dayı lap özünü itirib. Başa düşmürəm, bu necə işdir.

Rəhilə. Nə olub axı? Bir danış görək.

Murad. Deyir kimi isə diri-diri tutub.

Əli kişi. Sən də tutmusan bu dirinin boğazından. Buna bax, qızım. Axı bu buraxılış vərəqəsi köhnədir və bizim uşaqlar buraxıblar. Sonra görüblər ki, bir ay bundan qabaq yazılıb.

Rəhilə (*buraxılış vərəqəsini alıb baxır*). Bununla kim keçib?

Əli kişi. Karl Marks kolxozundan Qənbər. Xalq bura taxıl gətirəndə, o həmişə buradan taxıl çıxardır.

Rəhilə. Qoy bu kağız məndə qalsın. Hə, Əli dayı?

Əli kişi. Səndə qalsın. Amma itirmə, Qurbanova göstərəcəyəm.

Rəhilə. Qurbanova göstərmək lazım deyil, ayrı yerə göstərərik.

Əli kişi. Məsləhət sənindir. Əqil əqildən üstün olar.

Rəhilə. Gərək bu idarə bir təmizlənsin, Əli dayı, heç şübhə eləmirəm ki, burada bir cinayət var.

Gülümov gəlir.

Gülümov. Harda cinayət var? Nə olub, Rəhilə xanım?

Rəhilə. Heç, düşmənlərin cinayətindən danışıram. Gedək, Əli dayı, söhbətimiz yarımçıq qaldı.

Rəhilə və Əli kişi çıxırlar.

Gülümov. Rəhilə nə deyirdi, Murad?

Murad. Hələ sabah alacağam, bu gün vermirlər.

Gülümov. Bu zalım qızı hər yanı qurdalayır. Cinayət var deyib dad çəkir. Murad, bəs Əli kişi nə deyirdi?

Murad. Hələ iki saat var.

Gülümov. Kar evin yıxılsın.

Murad. Mən sizə lazım deyiləm ki, yoldaş Gülümov?

Gülümov. Səni əzrayıl axtarırdı, tapmadı?

Murad. Məni axtarırlar? Gedim, görək kim axtarır?

Çıxır. Səməndərli və Firuzə içəri girirlər.

Firuzə. Qurban burada da yoxdur? Səməndərli, yapış bunlardan bir oturum. Gülümov, Qurban hardadır, dünyanı axtarmışıq tapılmayıb.

Gülümov. Yəqin anbardadır, Firuzə xanım!

Səməndərli. Anbarda yoxdur.

Gülümov. O anbarı demirəm, azsovxoztrestin anbarı. Ordan başqa heç bir yerə getməz.

Firuzə. Axşam da evə gəlməyib. Nə bilim harada küllənib? Qoy onu bir tapım. Onu mən öz əməllərinə qurban eləməsəm, adını da dəyişdirsin. Səməndərli, yığ bunları qucağıma!

Səməndərli. Firuzə xanım, siz zəhmət çəkməyin, mən özüm apararam...

Firuzə. Ətimi tökmə, sən Allah. Yığ qucağıma, özüm apararam. Burada ol, indicə qayıdacağam.

Çıxır.

Səməndərli. Maliyyə vəzirinə təkrar-təkrar salamlar.

Gülümov. Yenə cəh-cəh vurursan, elə bilirsən xəbərim yoxdur?

Səməndərli. Nədən, ey mənfur kölgə?

Gülümov. Kölgəyə sən özün dönəcəksən. Xalq da qulağını tıxamayıb ki?

Səməndərli. Açıq danış, ey taxıl mücahidi!

Gülümov. İstəyirsən, açıq danışım. İşiniz məhkəməyə düşüb, Qənbəri çağırıblar, səni də bu günlərdə çağıracaqlar.

Səməndərli. Gülümov, aman günüdür mənə bir məsləhət. Qorxuram səhvən gəlib tutalar.

Gülümov. Axmaq. Kişi də özünü tutdurar? Bir az diribaş ol. Qohum-qardaş axtar, pul bas. Belə şeyləri sən məndən yaxşı bilirsən ki...

Səməndərli. Sən öl basaratım bağlanıb. Axı pulu necə verim? Kimə verim?

Gülümov. Məhkəmə sədrinə.

Səməndərli. Nə vasitə ilə?

Gülümov. Həmşirəsi vasitəsilə.

Səməndərli. Əcəb söz danışdın. Bu tələsikdə mən onun həmşirəsini haradan tapım ki?

Gülümov. Axtarmaq lazım deyil. Həmşirəsi lap yaxındadır. Həmin bu Firuzə xanım məhkəmə sədrinin bacılığıdır.

Səməndərln. Bah... Mən ölüm ha... Onda da gərək yıxılam Qurbanovun ayaqlarına...

Gülümov. Qurbanovun ayaqlarına niyə yıxılırsan ki? Arvadının ayaqlarına yıxıl. Görmürsən ər-arvad araları sərindir? Firuzə də pul sevəndir. Pul yerit.

Səməndərli. Bu məsələ məni lap diriltdi. Amma sənin əziz canınçün, Gülümov, pulum yoxdur.

Gülümov. Pulun yoxdur, qazan. Kişi də pulsuz qalar?

Səməndərli. Necə qazanım?

Gülümov. Öz aramızda?

Səməndərli. Əlbəttə, öz aramızda, bilmirəm ki, həyat müvəqqətidir?

Gülümov. Hazır naryad, hazır buraxılış vərəqəsi, nə qədər çıxarıb sata bilərsən?

Səməndərli. Ay Gülümov, mən heç alış-veriş eləyə bilmirəm axı!

Gülümov. Özün eləmə, elətdir. Al, qədərini özün yazarsan. Xərcin üç olacaq.

Səməndərli. Üç nə?

Gülümov. Üç min.

Səməndərli. Yox, çoxdur. İki min. Artıq olmaz.

Gülümov. Əlini ver. Bir kəlmə. İki yarım. Vəssalam. Artıq-əksik danışma, böyük-kiçik tanı.

Səməndərli. Mənə zülm olar a, Gülümov.

Gülümov. Daha mənə yox da...

O yanki otaqdan Ağazadə çıxır.

Ağazadə. Salam təbiidir. Neyləyirsiniz, pul sayırsınız?

Gülümov. Heç, elə-belə... Səməndərlinin pullarıdır.

Səməndərli. Məvacibimi alıram, üç aydır, yadımdan çıxıb, almamışam.

Ağazadə. Bəs üç aydır məvacib almayıb nə ilə dolanırsan?

Səməndərli. Gör nə deyir... Mən bu üç ayda nə ilə dolanmışam? Hə, Gülümov?

Gülümov. O cür ki, sən dolanmısan, heç dolanmasan yaxşı idi.

Ağazadə. Doğru deyirsən, adam var ki, heç bu dünyaya gəlməsə yaxşıdır.

Çıxır.

Gülümov. Hə, bu iş heç mənim xoşuma gəlmədi.

Səməndərli. Özümü çaşdırdım, sən də him eləmirsən ki, nə cavab verim. Mən suflyorsuz danışmağa adət eləməmişəm axı.

Rəhilə və Qumru oyankı otaqdan çıxırlar.

Gülümov. Aşna, bu yaxşı işə oxşamadı. Ağazadə bu qızların yanında neyləmiş olar?

Səməndərli. Yəqin ikisindən birində gözü var. Bu gün-sabah nəticəsi məlum olar.

Gülümov. Orası pisdir də. Rəhilə də, Qumru da bizim idarəmizin gözüdür. Rəhiləni gərək anbar Hüseyn alsın, Qumrunu Qurbanov! Yoxsa bizim tükümüzü didərlər. Hanı Hüseyn? (*Pəncərədən çağırır*) Anbar! Anbar! Səməndər, sən onu boynuna götür, mən Qurbanovu, gərək ikisini də bu gün-sabah evləndirək.

Hüseyn gəlir.

Hüseyn. Mən hazır.

Gülümov. Siz məşğul olun, bacıoğlu, mən daymın dalınca gedim. (*Çıxır*)

Səməndərli. Pullar hazırdır?

Hüseyn. Nə pullar? Mənim buğda anbarım var, pul anbarım yoxdur ki.

Səməndərli. Pul da buğdadan olur. Çıxart görək.

Hüseyn. Al dörd yüz manat, ikisi bəsimdir. Öyrət görüm.

Səməndərli. Bir kağız-qələm götür. Hamısını bir-bir qeyd elə. Sözlərimin hər kəlməsi bir qızıldır. Yaz, 1-ci üsul. Əvvəl qıza yaxınlaşan kimi birinci sözün bu olur: bağışlayız, naxallıq eləyirəm, salam-əleyküm. O da deyəcək, əleykəssalam. Onda sən deyərsən: izin verin, sizdən soruşum: adama bu dünyada hamıdan çox nə lazımdır?

Hüseyn. Pul.

Səməndərli. Axmaq. Pul adamı ölmək üçün lazımdır. Bəs adama nə lazımdır?

Hüseyn. Adama nə lazımdır? Adamın gərək adamı olsun. Yoxsa baş girliyə bilməz.

Səməndərli. Qız o cür cavab verməz. Qızınki mənəvi aləmdir. Sənin bu sualının qabağında o deyəcək, adama nə lazımdır, xoşbəxt bir yaşayış, yaz.

Hüseyn (*yazır*). Xoşbəxt bir yaşayış.

Səməndərli. Hə, o bu sözü deyən kimi sən üstünü al, de ki, bağışlayız, naxallıq eləyirəm, siz ki xoşbəxt yaşayış axtarırsınız, xoşbəxt yaşayış bu ləleşində, əgər birisi bədbəxt olub, ayağınızın altında sürünürsə, ona əlinizi uzatmazsınızmı? Qız deyəcək, kimdir o bədbəxt?

Deyərsən ki, mənəm. Qurtardı. Bu sözün qabağında qız, əgər bir az üzüyoladırsa, qollarını açıb üstünə gələcəkdir.

H ü s e y n. Çox yaxşı. Onda bu bir üsul bosdir. Daha artıq niyə xərc çəkəcəyəm ki? Pulun gerisini qaytar.

S ə m ə n d ə r l i. Yaxşı, birdən qollarını açıb üstünə gəlmədi? Onda adlayıb keçirsən ikinci üsula. Üsul sanı hərləyib-fırlayıb qızı keçirirsən girinə. Təkləyən kimi gedib deyirsən, gör sən dünyada nə qədər xoşbəxt yaranmısan! Qız təəccüblə deyəcək: nə üçün? Sən cavab verirsən ki: çünki mən sənə aşiq olmuşam. Fikrini birdən bomba kimi partladırsan. Bunun qabağında hələm-hələm qız dayana bilməz. Yox, birdən desə ki, istəmirəm, sevmirəm, oyan-buyan... onda bilirsən neylərsən?

H ü s e y n. Yox, bilmirəm. Bilsəm, xərc çəkib soruşmaram ki...

S ə m ə n d ə r l i. Onda bir əlini at cibinə, bir əlini də ürəyinə tutub çığır: elə isə, əlvida, artıq anbar Hüseynin ömrü bitdi. Mən özümü öldürəcəyəm. Onda qız qorxub özünü sənin üstünə atacaq.

H ü s e y n. Birdən atmasa?

S ə m ə n d ə r l i. Onda qızın qabağındaca özünü öldürərsən.

H ü s e y n. Doğrudan öldürüm?

S ə m ə n d ə r l i. Qeyrətin çatsa, öldürərsən, qeyrətin çatmasa, gələrsən mənim yanıma, sənə üçüncüsünü öyrədərəm. Yəni üsuli salis.

H u s e y n. Onda mən gedim, qızın yanına.

S ə m ə n d ə r l i. Dayan! Bu cür getmək olmaz. Paltarını dəyiş, üzünü qırxdır. Ondan sonra üsulları işlətməyə başla.

H ü s e y n. Mən, deməli, əvvəlcə gedib geyinim?

S ə m ə n d ə r l i. Get geyin, çünki bütün aşiqlər geyiniblər.

H ü s e y n. Üzümü də qırxdırım?

S ə m ə n d ə r l i. Get qırxdır. Çünki bütün aşiqlər qırxılıblar.

H ü s e y n. Gedirəm.

S ə m ə n d ə r l i. Get! Allah qüvvət versin, mənim Qıratım!

Q u r b a n və G ü l ü m o v girir

Vücudi şərifinizə salam olsun, qibleyi-aləm!

Q u r b a n o v (*gülür*). Hə, artist, yenə damağın yuxarıdır. Bu yassara da bir kömək elə, bir evlənməyi də bacarmır.

S ə m ə n d ə r l i. Az qalıb, yoldaş Qurbanov. Bir-iki günə kimi o da adam olar.

Q u r b a n o v. Gör də, gör neylərsən.

S ə m ə n d ə r l i. Görək neyləyəcəyəm. Gedək, Hüseyn.

Hüseyn və Səməndərli çıxırlar.

Q u r b a n o v. Gəl bura görək, Gülümov, ya onlara verər Allah, ya mənə.

G ü l ü m o v. Nə olub, yoldaş Qurbanov? Deyəsən, üstünüzə böyük bir qoşun çəkiblər.

Q u r b a n o v. Qoy çəksinlər. O qoşunun qabağında tək dayanacağam. Raykomdan adam-zad gəlməmişdi ki?

G ü l ü m o v. Rəsmi heç kəs gəlməyib.

Q u r b a n o v. Bizi yaman hərləyirlər. Deyəsən, material gündən-günə şişir. Eybi yoxdur, arıqladarıq.

G ü l ü m o v. Raykomun təlimatçısı Ağazadə buralarda çox hərlənir. Bizim Qumru ilə çox xosunlaşır.

Q u r b a n o v. Hə? Qumru ilə? Nə danışırlar?

G ü l ü m o v. Bilmirəm. Ağazadə subay oğlandır, qorxuram quş uçurdalar. Siz bir az tələsin, yoldaş Qurbanov.

Q u r b a n o v. Hə, necədir? Sən onunla danışdın? Meyli var?

G ü l ü m o v. Meyli olmayıb, nə olacaq ki? Sizdən gözəlinə getməyəcək ki? Siz möhkəm girişin.

Q u r b a n o v. Di get onda onu bura çağır, işə girişim. Gözdəqulaqda ol. Kabinetə adam girməsin.

G ü l ü m o v. Arxayın olun.

Çıxır. Qurbanov özünü düzəldir. Bir azdan Qumru qaçaraq içəri girir.

Q u m r u. Məni çağırırsınız, yoldaş Qurbanov? Buyurun.

Q u r b a n o v. Gəl yaxına, gəl görək, Qumru! Rəngin niyə qaçıb?

Q u m r u. Sözünüzü deyin, mən tələsirəm.

Q u r b a n o v. Hara tələsirsən? İşə? Sənə bu gün vıxadnoy verirəm. Gəl yaxına, danışım, gör başımda nələr var.

Q u m r u. Bilirəm, elə işlərlə maraqlanmıram.

Q u r b a n o v. Maraqlanmasan yaxşıdır. Sən gülsən, gülün material ilə, intriqa ilə nə işi var? Dayan, getmə görək.

Q u m r u. Yersiz söz danışırsınız, yoldaş Qurbanov! Mənim işim var.

Q u r b a n o v. İşlərin hamısını səndən əvəz mən görərəm. Sən özünə əziyyət vermə, arıqlayarsan.

Q u m r u. Kökəlməyi neyləyirəm ki? Məni ətliyə satmayacaqlar ki. Yolumu kəsməyin, gedirəm.

Q u r b a n o v. Eh... ay Qumru? Gərək sən məni bir il bundan qabaq görəydin. Qapımda saat kimi işləyən qaz maşın dururdu. Kefim elə kök idi ki, deyəsən bir dəqiqə ayıq vaxtım olurdu? Düşdüm dolaşığa. Üstümə böhtan atdılar. Gətirib məni saldılar bu palçıq rayona, eybi yoxdur. Qurbanov palçıqda da üzə bilir. Gör mən burada hələ sənin üçün nə dəstgahlar düzəldəcəyəm!

Q u m r u. Ayıb deyilmi sizinçün, yoldaş Qurbanov? Evli adamsınız...

Q u r b a n o v. Nəyəm? Evli? Xeyr. Günü bu gün Firuşun dəmdəstgahını verəcəyəm qoltuğuna. Onda nə sözün ola bilər?

Q u m r u. Buraxın görək... (*Qurbanov Qumrunun qolundan tutur. Qumru çəkilmək istəyəndə, Firuzə və Səməndərli içəri girirlər*)

S ə m ə n d ə r l i. Dəhşət, yerlər qan, göylər qan!

F i r u z ə. Qurban? Qurban?

Q u r b a n o v. Yazığın dişi ağrıyırdı. Dişinə baxmaq istəyirdim.

F i r u z ə. Al, bu da sənə dişağrısı. Ay uşaq, yapışın məndən, partladım.

P ə r d ə

ÜÇÜNCÜ PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

İdarənin həyəti. Firuzə və Səməndərli kabinetdən çıxırlar.

F i r u z ə. Gördün, Səməndərli? Gördün bu kişinin həyasızlığını? Mən də deyirəm niyə gecələr evə gəlmir. Arvadların dişinə baxır.

S ə m ə n d ə r l i. Səbirli olun, Firuzə xanım! Bu işin üstündə ona elə gələcəklər ki, hər bir parçası keçilməz altun dənizlərinə birər körpü olacaqdır.

F i r u z ə. Allah vurmuşdu onu, ondan körpüsalan olar? Mənə deyən gərək niyə ömrünü bu çürük ömrə calamısan ki, bu cür düyün düşüb, gördün şilləni necə yapışdırdım? Hələ onun başına nə oyun açacağam! Nə baxırsan?

S ə m ə n d ə r l i. Mən böyük bir ailə faciəsinin şahidi oluram.

F i r u z ə. Əlbəttə, görənlərin hamısını ora çəkəcəyəm. Məhkəmədə sən də şahidsən.

S ə m ə n d ə r l i. Məhkəmədə? Şahid? Məni çağırırlar? Qardaşın dedi?

F i r u z ə. Heç kəs demədi. Özüm deyirəm. Uzatma, gəl görək. Mən tanımıram, bir-bir o idarələri mənə göstər.

S ə m ə n d ə r l i. Gedin, qoy mən sizin həyat dənizinizdə bir fənər olum. (*Çıxırlar*)

Q u m r u və A ğ a z a d ə içəri girirlər.

A ğ a z a d ə. Heç eybi yoxdur, Qumru xanım. Onun sənə olan bu hücumu son hücum idi.

Q u m r u. Mən bu işi mərkəzdə hər yana yazacağam.

A ğ a z a d ə. Rayon partiya komitəsindən, mərkəzdən, hər yandan materialları yoxlamaq üçün bura gəlmişlər.

Q u m r u. Onlar bununla mənim ağzımı yummaq istəyirlər.

A ğ a z a d ə. Sizin dediklərinizi mən qeyd eləmişəm. Heç kefinizi pozmayın.

Q u m r u. Məni təhqir etdilər. Bu saat bütün idarə bu barədə danışır. Qızın adı çıxınca, canı çıxsın.

M u r a d içəri girir. Qumru qaçır.

M u r a d. Bura bax, Rəşid! Mənim qulağım eşitmir, amma gözüm yaxşı görür.

A ğ a z a d ə. Nəyi görürsən, ədə, nə deyirsən? Niyə belə ikimənalı sözlər danışırsan?

M u r a d. Bizim rayonda dörd-beş qurd var, hamısı yığılıb bir yerə. Ayıq olun ey.

A ğ a z a d ə. Bunu deyirsən? Amma elə başladın ki, qızın ürəyinə min fikir gəldi.

M u r a d. Sözümü kəsmə, onsuz da eşidən deyiləm. Rəhiləyə də demişəm ki...

A ğ a z a d ə. Nə çox Rəhilədən danışırsan?

M u r a d. Yavaş, ədə. Çığırma. Ay-hay, əcəb adamsan. Sənə sirr vermək olar? Eşidər, bütün işlər pozular.

A ğ a z a d ə. Yavaş deyəndə eşitmirsən. Çığırmağa da qoymursan, bəs mən neyləyim?

M u r a d. Hələlik sən bir şey eləmə, yoxsa işi salarsan quyunun dibinə. Yaxşı, nə oldu, yoxlayıb qurtarmadın?

A ğ a z a d ə. Yoxlamışam. Bütün məsələlər məlumdur. Amma sən onları gözdən qoyma.

M u r a d. Gedirsən get, amma mən ölüm tez-tez gəl. Sənsiz darıxıram. Vur bura beş qardaşı.

A ğ a z a d ə. Al, mən həmişə burdayam, iş qurtarmamış hara gedirəm ki?

Q u r b a n o v və G ü l ü m o v gəlirlər.

Q u r b a n o v. Ağazadə, əlin əlimə dəysin. Yoxsa yenə məni katib çağırır? Əşi, bu raykomun taxıl tədarükü idarəsindən başqa işi yoxdur yəni?

A ğ a z a d ə. Yox, yoldaş Qurbanov. Sizinçün gəlməmişəm. Ayrı işim var.

Q u r b a n o v. Hə, Allah sənə şükür. Deyəsən, bu gün məni raykom dinc qoyub. Deməli, idarəmdən arxayın olmağa başlayıblar. Yaxşı, sənin ayrı nə işin ola bilər ki?

A ğ a z a d ə. Heç, xırda işdir. Xudahafiz, mən getməliyəm.

Q u r b a n o v. Xudahafiz. (*Ağazadə çıxır. Qurbanov Gülümova*) Bu burada nə hərlənir?

G ü l ü m o v. Heç bilmirəm, yoldaş Qurbanov. Demədim Qumru ilə xosunlaşır?

Q u r b a n o v. Sonra məndən xəbərsiz yoxlama-zad eləyər ha... Ayıq ol!

G ü l ü m o v. İş yoxlamadan çox məhəbbətə oxşayır. Deyəsən, Qumrunu sizdən qabaq o behləmək istəyir.

Q u r b a n o v. Hər halda, hərtərəfli bütün cinahları bərkitmək lazımdır. Mənim üzümdə qızartı yoxdur ki?

G ü l ü m o v. Xeyr, yoldaş Qurbanov! Ağappaq mərmər kimi üzdü.

Q u r b a n o v. Heç bilmirəm bu şillə nə idi arvad mənə vurdu. Bəs Qumru yenə naz eləyir, qaçır, yaxın qoymur. O boyda mirvarini qəbul eləyəndən sonra bu cür əl-ayaq atmaq nə üçün?

G ü l ü m o v. Bilmirəm. Özüm də məəttələm. Yəqin demək istəyir ki, azdır.

Q u r b a n o v. Narazılığını bildirmək üçün əcəb üsul tapıb. Yox, mən ki, bir işə girişirəm, şillə deyil, top da atılsa, geri çəkilməyəcəyəm. İrəli, ateş!

S ə m ə n d ə r l i içəri girir.

S ə m ə n d ə r l i. Hanı ateş? Mən bu saat söndürməyə ateş axtarıram, yoldaş Qurbanov! Göstərin yerini.

Q u r b a n o v. Ateşi mən hələ yaradacağam, Səməndərli! Onda görərsən. Məni raykom ilə qorxudurlar. Qoy hələ gedim bir motoruma benzin töküm.

Çıxır.

S ə m ə n d ə r l i. Kişi lap kələfin ucunu itirib. Ekspromt oynayan artistlərə oxşayır. Sən buna nə deyirsən, ey bülbülünü itirmiş zavallı Gülümov?

G ü l ü m o v. Çox da arsızlığa vurma. İşlər şuluqdur. Qurbanov ilə bütün haqq-hesabını üz, Ağazadə buralarda çox hərlənir, deyəsən, kişinin başını yeyəcək.

S ə m ə n d ə r l i. Bah... mən ölüm ha... Onda gəl əlindən material verək.

G ü l ü m o v. Sənin materialına çox inanan var? Axmaq, əlinə düşəni idarədən çıxart, Firuzənin məsələsini tez elə, fürsətdir.

S ə m ə n d ə r l i. Fürsəti fot eləməz, aqil məgər nadan ola. Eşitməmisənmi, ey mühasiblərin ən fərasətsizi?

H ü s e y n içəri girir.

G ü l ü m o v. Budur bax, fərasətsiz buna deyərlər. Bir məsələni qurtara bilmir. Ayağı tələyə ilişəndə ayılacaq.

H ü s e y n. Çalışıram, Gülümov dayı, əzbərləmişəm.

S ə m ə n d ə r l i. Anbar Hüseyn. Gəl bura görək, bədbəxt!

G ü l ü m o v. Anbar, bəzənmisən, mübarəkdir. (*Çıxır*)

H ü s e y n. Paltarım necədir?

S ə m ə n d ə r l i. Libas insanın zinətidir. Ürəyin təmiz olmaqdansa, paltarın təmiz olsun.

H ü s e y n. Mənimki təmiz deyil?

S ə m ə n d ə r l i. İndi cürətli ol. İki üsulun ikisini də işlət, əzbərləmisənmi?

H ü s e y n. Yadımdan çıxsa, kağıza baxaram.

S ə m ə n d ə r l i. Qorxma, işə giriş. Mən gedirəm, bir bəhanə ilə qızı bura göndərərəm. (*Çıxır*)

H ü s e y n (*Öz-özünə əzbərləyir*). Bağışlayız, naxallıq eləyirəm, salaməleyküm. Əleykəssalam. İzin verin sizdən soruşum, adama bu

dünyada hamıdan çox nə lazımdır? Xoşbəxt bir yaşayış. Nə lazımdır? Xoşbəxt bir yaşayış...

Rəhilə içəri girir.

Hüseyn. Bağışlayız, naxallıq eləyirəm, salaməleyküm.

Rəhilə. Mənim yersiz salama ehtiyacım yoxdur.

Hüseyn. Bəs bu cavabı düz vermədi ki... Eybi yoxdur, qoy dalını deyim görək nə olur? Bağışlayız, naxallıq eləyirəm, izin verin, sizdən soruşum. Nə soruşum? Zəhrimar yadımdan çıxdı. (*Kağıza baxır*)

Rəhilə. Siz dəli olmusunuz, nədir?

Hüseyn. Yadıma düşdü. İzin verin, sizdən soruşum, adama bu dünyada hamıdan çox nə lazımdır.

Rəhilə. Bir az əqilli olmaq.

Hüseyn. Bağışlayız, naxallıq eləyirəm...

Rəhilə. Doğrudan da, naxallıq eləyirsən...

Hüseyn. Sözümü kəsmə, cümləm qırılır... siz ki... siz ki, xoşbəxt yaşayış axtarırsınız, xoşbəxt yaşayış bu lələşində, əgər birisi bədbəxt olub ayağınızın altında sürünərsə, ona əlinizi uzatmazsınız?

Rəhilə. Yox. Çünki yerlərdə sürünmək heyvanlara aid xasiyyətdir. Heyvan kimdir?

Hüseyn. Mənəm. Uzadın əlinizi.

Rəhilə. Axmaq! (*Getmək istəyir*)

Hüseyn. Dayan, dayan, getmə. Adlayıb keçirəm ikinci üsula. (*Kağıza baxır*) Gör sən dünyada nə qədər xoşbəxt yaranmısan!

Rəhilə. Nə üçün?

Hüseyn. Gör nə düz cavab verdi. Malades. Çünki mən sənə aşiq olmuşam.

Rəhilə. Naxal.

Çıxır.

Hüseyn (*bir qədər dayanır, sonra birdən yadına düşmüş kimi qaçır*). Dayan, dayan, hələ dalı var. (*Səməndərli ilə rastlaşır*) Elə isə, əlvida, artıq Hüseynin ömrü bitdi. Mən özümü öldürəcəyəm.

Səməndərli. Sus, ey bədbəxt? Qabağındakı mənəm.

Hüseyn. Getdi. Üsulların ikisi də boş çıxdı. Evim yıxıldı.

Səməndərli. Rəhiləni almırsan deyə evin niyə yıxılır ki? Ey qara kölgə?

Hüseyn. Başa düşmürsən? Anbarda əskik var. Rəhilə laborantdır. Rütubəti, torpağı çoxaltsam, mənim işim düzələr. Onu alsam, ikimiz bir yerdə pul kəsərik, bildin? Səməndərli, ölən günümdür.

Səməndərli. Sənə bir üsul da öyrədərəm. Üçüncü üsul beş yüz manat. Razısan?

Hüseyn. Sən də günü-gündən qiyməti qaldırırsan?

Səməndərli. Üsul özü qiymətli üsuldur. Beş yüz, artıq-əskik olmaz. Tez ol, tələsirəm.

Hüseyn. Öyrət, keçibdir daha...

Səməndərli. Bəs pullar? Ovcumun içi qaşınır. Say, sakit elə.

Hüseyn. Sən bilirsən ki, mən yanımda pul gəzdirmirəm, sonra verərəm.

Səməndərli. Nisyə bəşəriyyətin ən böyük düşmənidir, zavallı.

Hüseyn. Sən öl verərəm. Keçən səfər vermədim?!

Səməndərli. Çox gözəl, elə isə, ey böyük cani, bil və eşit, üçüncü üsul budur, bax! (*Əlilə pula işarə edir*)

Hüseyn. Pul. Sən dayımın canı? Onun yolunda varımdan-yoxumdan keçərəm.

Səməndərli. Bu işə nə qədər buraxa bilərsən?

Hüseyn. Nə qədər desən. Bir min, iki min...

Səməndərli. Sus, ey aciz məxluq, bir-iki minə Rəhilə heç sənin üzünə baxıb gülməz də, smetanı böyüt!

Hüseyn. Üç min.

Səməndərli. Qalx, yüksəklərə doğru uç!

Hüseyn. Beş min.

Səməndərli. Pərvaz et.

Hüseyn. Altı min bəsdir.

Səməndərli. Elə isə pulları hazırla.

Hüseyn. Nağd pul yoxdur axı.

Səməndərli. Özün bil, pulun yoxdur, onda daha yuxarılardan yapışma, aşağılardan yapış, aşxanalarda yeməkpaylayan, kinoda biletə baxan, sənin kimilər belələridir. Dəvəçilə dost olanın darvazası gen gərək.

Hüseyn. O qədər nağd pulu haradan tapım?

Səməndərli. Sus, ey xəsisin biri, xəsis! Sən bu elmlə ali məktəbdə dərs deyə bilərsən. Qənbəri tanıyırsan?

Hüseyn. Karl Marks kolxozunun briqadiri?

Səməndərli. Hə. Karl Marks kolxozunun briqadiri. Bir ton taxıl artıq buraxarsan. Qənbərdən...

Hüseyn. Olmaz. Arxayın deyilәm.

Səməndərli. Mən cavabdehəm. Nədən qorxursan? Bir ton taxılın əvəzində sənin yanında bir çamadan qoyacaq. İçində də beş min manat.

Hüseyn. Bu Qənbərin məzənnəsidir?

Səməndərli. Bəs nə qədər, məni də yeməyəcəksən ki?

Hüseyn. Kilosu beş qəpiyə düşür.

Səməndərli. Yaxşı, ey mənfur kölgə. Çamadanın içindəki pullar balaladı, bir min artdı.

Hüseyn. Sərf eləməz.

Səməndərli. Bəsdir, özgə malı deyil ki? Hökumətin taxılıdır. Biz də hökumətin balası. Öz atamızın malını yeyirik.

Hüseyn. Yaxşı. Amma buradan çıxartmağı səndən.

Səməndərli. O hazır. Propusk cibimdə.

Hüseyn. Bəs mən pulları o qıza necə verim?

Səməndərli. Onu da öyrədim? Pulları bükərsən bir boğçaya, aranı xəlvət eləyib qabağında diz çöküb, ədəb ilə təqdim eləyərsən.

Hüseyn. Bir söz deməyim?

Səməndərli. Yox, uzun danışsan, ilişərsən. İkicə kəlmə. Ölüm, ya olum.

Hüseyn. O nə deyən sözdür?

Səməndərli. Onun mənasını sənin dayın da başa düşməz.

Hüseyn. Ölüm... İlişirəm, axı.

Səməndərli. Nağd deyil, ona görə ilişirsən. Əlində pul olandan sonra bülbül kimi danışacaqsan.

Hüseyn. Qənbər gəlir, sən ona əhvalatı danış, mən getdim.

Çıxır. Qənbər içəri girir.

Qənbər. Salam, heç kəs yoxdur ki?

Səməndərli. Heç kəs yoxdur. Danış, görək, nə var? Ürəyim partlayır.

Murad içəri girir. Oturub işləməyə başlayır.

Qənbər. Məhkəmə sədrini pul ilə almaq lazımdır, ayrı heç bir əlacı yoxdur.

Səməndərli. Bu gün təzə xəbər eşitmişəm. Məhkəmə sədrinin bacısı Firuzə xanım Qurbanovun arvadıdır. Qurbanov da vurulub Qumruya, arvadını boşamaq istəyir. Nə deyirsən, mən girələyim onu.

Qənbər. Bacarsan, lap nurələm nur olar. Amma buna mənim tədbirim deyərlər. Pul mütləq lazımdır, özü də çox.

Səməndərli. Pul da düzəlir. Anbar Hüseyni tovlamışam, altı verib ondan bir ton götürərsən, hə necədi, əridə bilərsən?

Qənbər. Göydə, bir ton bir ətək pul eləyər. Taxıl bu saat fır-fır fırıldayır. Oldu.

Səməndərli. Oldu. Böyük adamsan, ulu Hürmüzdə and içirəm ki, böyük vücudsan.

Qənbər. Taxılları nə vaxt aparıram?

Səməndərli. Günü sabah. Arabaları götür gəl, doldur sür bazara, vəssalam, di gəl gedək, ey mənim istinadgahım!

Çıxırlar.

Gülümov içəri girir. Stolun dalına keçib işləməyə başlayır.

Qurbanov (*yarıkefli içəri girir*). Gülümov, afərin, yenə işləyirsən? İşlə, işlə, material verənlərin qabağına gərək qoz qoyaq.

Gülümov. Canımızı qoymuşuq, yoldaş Qurbanov! Siz rəhbər olan idarədə mən özümü ölümə verərəm.

Qurbanov. Sağ ol, sağ ol. Aşnamsan. Amma Gülümov, bu gün yəqin elədim ki, sənin ruhun yoxdur.

Gülümov. Lap mötəbər mənbədən eşitmisiniz, yoldaş Qurbanov?

Qurbanov. Mənimlə mübahisə eləmə, Gülümov, ruhun yoxdur. Ruhun olsaydı, burda oturub çötkə salmazdın. Gələrdin azsovxoztrestin skladına. Görərdin ki, Qurban Qurbanov taxıl tədarükü idarəsinin markasını necə yuxarı qaldırdı.

Gülümov. Xəbərim olmayıb, yoldaş Qurbanov! Üzr istəyirəm.

Qurbanov. İstəmə, verən deyilәm. Qərəz ki, nə uzadım, raykomda qanım qaraldı, durdum birbaş gəldim azsovxoztrestin skladına, gördüm aşnalarımın hamısı buradadırlar. Dörd adam iki şüşəni gücnən içib qurtarıblar. Təkbaşına üç şüşə vurdum, durdum.

Gülümov. Hansından vurdunuz, Qurbanov? Araq, yoxsa pivə?

Qurbanov. Nə pivə? Çıxart siyahıdan, pivəni sərxoşlar içər. Araq eşq atəşidir.

Gülümov. Məsləyimiz bir-birinə düz gəlir. Mənim də ixtisasım araqdır. Şərabla da aram yoxdur.

Qurbanov. Yox, Gülümov. Burda da səhv buraxdın. Şərab bəşəriyyətin zinətidir. Bütün qədim şairlər şərab haqqında ölməz əsərlər yazıblar.

Gülümov. Moddan düşüb. Zəmanəmizin şairləri bir kəlmə də şərabdan yazmırlar.

Qurbanov. Çünki tapmırlar. Şairə şərabı verən kimdir ki, onu hələ təsvir də eləsin. Şərab insanı yüksəldir, bu gün mən hirsimdən üç şüşə şərabı birnəfəsə içdim.

Gülümov. Bəs nə üçün hirsli idiniz?

Qurbanov. Hirsli olmayıb neyləyim? Raykom katibi üzümə vurur ki, idarəndə yeyirlər, dağıdırlar, arvad buradan gəldi, pul buradan getdi. Böhtandır da, böhtan adamı yandırar axı. Amma ürəyim elə yanır ki, elə bil yağsız tavada balıq qızardırlar. Qoy Qumrunu çağırıb bir stəkan su istəyim, bəlkə barışdı. Qumru!

Murad gəlir.

Murad. Buyurun, yoldaş Qurbanov? Məni çağırırsınız?

Qurbanov. Ədə, sənin adın Qumrudur? Sən Qumrusan?

Murad. Bəli.

Qurbanov. Bu nədir, a Gülümov. Üç şüşə mən içmişəm, niyə bu qələti eləmirəm? Heç bu cür arvad olar?

Gülümov. Kardır, yoldaş Qurbanov, dediyinizi eşitmir.

Qurbanov. Əvvəla ona de ki, müharibə vaxtı kar olmaq yaramaz. Tezliklə qulağını açdırsın. Sonra da adam nə qədər kar olsa, yenə də arvadla kişinin arasındakı fərqi başa düşər. Qumru!

Murad. Buyurun, Yoldaş Qurbanov!

Qurbanov. Əstəğfürullah... Xərcim batmadı? Bir də cavab versə, məni tamam ayıldacaq ha... A Gülümov, mən ölüm, bunu çıxart siyahıdan, qoy işimizin görək.

Gülümov. Murad! Get işini gör, yoldaş Qurbanov sənlə deyil?

Murad. Siyahı? Baş üstə, bu saat gətirərəm.

Çıxır.

Qurbanov. Nəyi gətirir? Hara getdi?

Gülümov. Yoqin o elə başa düşdü ki, kağızlara qol çəkmək istəyirsiniz. Gətirməkçün getdi.

Qurbanov. Ay canım, indi mənim kağızlara qol çəkməli vaxtım deyil, xərcim batmadı? Yox, ayıldım. Onu qoyma kağız-kuğazları dartıb gətirsin.

Gülümov. Eybi yoxdur, vaxt tapıb qol çəkərsiniz. On-on beş gündür gecikir.

Qurbanov. Yox, kağızları görən kimi ayılacağam, get onu qoyma.

Gülümov. Baş üstə! (*Çıxır*)

Qurbanov. Ürək yanğısından ölürəm. Bu Qumru harada qaldı? Qumru!

Firuzə öz evlərindən çıxır.

Firuzə. Nə var? Nə səsini başına salmısan? Zəhrimar!..

Qurbanov. Ağzın şirin olsun.

Firuzə. Hələ sənin ağzını şirin eləyəcəyəm. Onda görərsən. Bu saat raykomu ispalkoma, ispalkomu raykoma qatmışam. Başın qatışıb arvadlara, kül başına, qulağının dibində dünyanı sökürlər, xəbərin yoxdur. Vallah, səni ittifaqda biabır eləyəcəyəm.

Qurbanov. Qulluq işinə qarışma, Firuzə, min kərə sənə demişəm.

Səməndərli içəri girir.

Firuzə. Kəs! Yoxsa, şapalağın birini də yemək istəyirsən?

Səməndərli. Aha, su və şlanq lazımdır. Yanğın qoxusu gəlir.

Qurbanov. Ay Səməndərli, yanan mənim ürəyimdir. Bu arvad mənim ürəyimi yandırdı.

Səməndərli. Səhv eləyirsiniz, müdir, Firuzə xanım kimi qadın dünyada təkdir.

Firuzə. O nə qanır, onun kişi başını yerə soxum.

Qurbanov. Ağzın şirin olsun.

Qumru içəri girir.

Qumru. Utanmayıb hələ məni çağırırsınız da.

Qurbanov. Bu da nə pis vaxtda gəldi.

Firuzə. Ağız ey, nə mənim ərimin başına dolanırsan? Gözümə görünmə, vallah, səni faşist soldatına döndərərəm.

Qumru. Ay ana, mənim sənin ərinlə heç bir işim yoxdur.

Firuzə. Mənə ana deyirsən, ağız? Vaxtında orə getsəydin, mən boyda qızın vardı. Mənə sataşırsan ay... ay... Yapışın məndən. Səməndərli, yapış məndən.

S ə m ə n d ə r l i. Yoldaş müdir, icazə verin arvadımızdan yapışım.

Q u r b a n o v. Yaxşı eşit, Firuş! Mən sənin lə yaşamıram və ayrılıram. Yeni həyat başlamaq istəyirəm. Sənin heç bir kəlmə də danışmağa ixtiyarın yoxdur. Sən öl xərcim batmadı?

F i r u z ə. Qanun var. Məhkəməsiz ayrılmağa ixtiyarın yoxdur.

Q u r b a n o v. O sənin qulluğunda qalsın. Biz ZAQS ilə evlənmişik ki?.. Molla kəbini heçdir. Bizimki qurtardı.

F i r u z ə. Ay, ay, yapışın məndən.

S ə m ə n d ə r l i. Arxayın olun, Firuzə xanım. Mən sizdən bərk yapışmışam, qiyamətə kimi qopmayacağam.

P ə r d ə

DÖRDÜNCÜ PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Yenə həmin yer. F i r u z ə və S ə m ə n d ə r l i içəri girirlər.

S ə m ə n d ə r l i. Hirs qadının gözəlliyi üçün bir zərbədir. Xanım, siz Qurbanovu üroyinizdən silib atın, əvəzində bu yetim Səməndərlinin heykəlini qurmağınızı xahiş edirəm. Cavab ver, Cülyetta, Romeo səni gözləyir.

F i r u z ə. Gül kimi adımı dəyişdirmə, sən Allah! Amma yadında yaxşı saxla ki, mən gündə bir ərə gedib çıxan arvadlardan deyiləm.

S ə m ə n d ə r l i. Mən sənin ikinci və sonuncu ərin olmaq istəyirəm.

F i r u z ə. Deməli, təklif eləyirsən ki, evlənək?

S ə m ə n d ə r l i. Evlənək nə sözdür? Yeni həyat quraq, cənnət guşəsi kimi bir guşə düzəldək.

F i r u z ə. Sən artistsən?

S ə m ə n d ə r l i. Əlbəttə, görmürsən, həyat müvəqqəti, incəsənət daimidir.

F i r u z ə. Bəs mən səni heç səhnədə görməmişəm.

S ə m ə n d ə r l i. Mən səhnədə yox, həyatda artistəm.

F i r u z ə. Həyatda da artist olar?

S ə m ə n d ə r l i. Həyat bir səhnədir, biz hamımız artistik.

F i r u z ə. Hansı dükana prikripitsən?

S ə m ə n d ə r l i. Xalqın dükanına, məni xalq dolandırır.

F i r u z ə. Keç məsul işçilərin dükanına!

S ə m ə n d ə r l i. Sənin ömrün mənimçün qanundur, xanım. Hara deyirsən, keçərəm. Həyat bir mənzildir, biz hamımız bu həyatda köçəriyik.

F i r u z ə. Məzəli danışırsan ey, heç o külbaş bu cür danışmağı bacarmırdı.

S ə m ə n d ə r l i. Yaxşı, bizim bu xoşbəxt toyumuzda sənin qohum-qardaşlarından biri iştirak etməyəcək? Məsələn, qardaşın?

F i r u z ə. Hansı qardaşım?

S ə m ə n d ə r l i. Məhkəmə sədri sənin qardaşın deyil?

F i r u z ə. Kamalı deyirsən? O mənim ögey qardaşımdır. Aramız yoxdur. Neçə ildir ki, bu Qurbanın üstündə küsülüyük.

S ə m ə n d ə r l i. Küsülüsən? Nahaq! Günü bu gün barış. O cür qardaşı adam əl üstündə saxlayar. Ögey olanda nə olar ki?

F i r u z ə. Yaxşı, barışaram.

S ə m ə n d ə r l i. Hə, bu ayrı məsələ. Gedək, ey mənim zülfisiyahim. (*Qənbər içəri girir*) Yox, hələ getməyək. Sən ceyran yerişləri ilə xırda-xırda yeri, mən də bir saniyədən sonra özümü çatdıraram.

F i r u z ə. Nə oldu ki?

S ə m ə n d ə r l i. Bu yoldaş kolxozçunun mənimlə ikicə kəlmə sözü var.

F i r u z ə. Bu kolxozçu niyə olur ki? Qənbərdir də. Qonbər, xoş gördük.

Q ə n b ə r. Xoş gününüz olsun, xanım.

F i r u z ə. Mən gedirəm, Səməndərli, tez gəl.

S ə m ə n d ə r l i. Bu dəqiqə gəlirəm.

Firuzə çıxır.

Q ə n b ə r. Heç uduzmamısan, Səməndərli. Arvadlığı da pis deyil.

S ə m ə n d ə r l i. Görürsən? Qurbanov kimi canavarın əlindən onu elə çəkib qopartdım ki, özü də məəttəl qaldı. Bu gün gedib qardaşı ilə tanış olacağam. Qohumluqda gərək məhkəmədəki işləri ondan alıb öz əlimlə yandıram. Yanğın var, yanğın...

Q ə n b ə r. Çığırıb camaatı başımıza yığma. İşləri tez rədd eləmək lazımdır. Mən heç, mən çox o cür ütülərdən nəm çıxmışam. Amma sən birinci dəfəsən, gedərsən, gəlməzsən. Taxıl üçün müştəri görmüşəm. Anbar Hüseynin də pulları hazır. Tez ol tap, verim başdan olsun.

Səməndərli. Hardadırsa, gəlib çıxar, yaxşı, birdən Firuzənin qardaşı razı olmadı. Evimiz yıxılar ha...

Qənbər. Axmaq olma. Pulun ucunu göstər, əl quzusu kimi dalınca gələcək. (*Hüseyn içəri girir*)

Hüseyn. Qənbər? Oğlan gəlmisən, qız?

Səməndərli. Siz haqq-hesablaşın, çeşmi xumarım gözləyir, mən getdim.

Qənbər. Tez qayıt. Bu gün gərək zəhrimarları çıxardaq.

Səməndərli. Bu saat. İldırım sürətilə.

Çıxır.

Qənbər. Gör nə özünü oda vurur. Elə bilir buradan ona bir şey düşəcək. Qənbər ölüb də...

Hüseyn. Pulları ver, mən yerbəyer eləyim. Sonra gələn olar.

Qənbər. Bir qəbz yaz, bir ətək puldur, kişi gərək işini ehtiyatlı görsün.

Hüseyn. Di, onda gəl anbara.

Rəhilə içəri girir.

Rəhilə. Sizdən kiçik bir məlumat almaq lazımdır, Hüseyn yoldaş!

Hüseyn. O xoşbəxtlik mənə haradan üz verib? Sən get, Qənbər dayı, mane olma. Mən bu saat gəlirəm.

Rəhilə. Qənbər sizsiniz?

Qənbər. Bəli, xanım. Bir qulluğunuz varsa, buyurun.

Rəhilə. Deyirlər, siz adınızı yalandan kolxozçu qoymusunuz.

Qənbər. Xeyr, xanım, mən xalis kolxozçuyam. (*Hüseynə*) Danışsan dilin qurumaz ki?

Hüseyn. Qənbər öz adamımızdır, Rəhilə xanım, bir papaq eləsəniz, bütün kənd axıb ayaqlarınıza tökülər.

Rəhilə. Ancaq Qənbər tərsinə eləyir, kənddən bura taxıl gətirməkdənsə, buradan taxıl çıxardır. Özü də saxta buraxılış vərəqəsilə.

Qənbər. Rəhilə xanım, bu mənim adıma böhtandır.

Hüseyn. Qənbər dayı, zəhmət çək, cavanların söhbəti var.

Qənbər. Gedirəm, gedirəm, bala, mane olmaram...

Çıxır.

Hüseyn. Əmriniz, Rəhilə xanım! Hüseyn bütün anbarilə qulluğunuzda kəmər bəstədir.

Rəhilə. Bu necə işdir, Hüseyn yoldaş, iki kağızın ikisində də sənin yazdıqlarınla mənimki düz gəlmir. Sənkilərdə rütubət artıb.

Hüseyn. Rəhilə xanım, gərək çoxdan hiss eləyəydiniz ki, sizi görəndə mənim rütubətim də artır, hərarətim də...

Rəhilə. Sənlə işim yoxdur, taxılın rütubətinin artmağı pisdir.

Hüseyn. Rəhilə xanım' Taxılın rütubətinin artmağına da səbəb sizsiniz. Anbarda oturub o qədər ağlayıram ki, göz yaşım hökumətin taxıllarını isladır. Anbarda, əgər istəyirsiniz ki, hökumətin taxılı rütubətsiz olsun, əvvəlcə mənim göz yaşlarımın qabağını saxlayın.

Rəhilə. Çox mənasız danışırsan. De görüm, bu necə məsələdir? Bəlkə anbara siçan dadanıb? Düzünü de... Düzünü de...

Hüseyn. Rəhilə xanım, səbir eləyin, on dəqiqədən sonra anbar Hüseynin necə oğlan olduğunu mən sizə sübut eləyəcəyəm.

Murad və Ağazadə içəri girirlər.

Ağazadə. Nə ilə sübut eləyəcəksən ki?

Hüseyn. Heç... ayrı söz danışırdıq. Salam, yoldaş Ağazadə!

Aqazadə. Salam təbiidir, nə olub, Rəhilə?

Rəhilə. Bir balaca söhbətimiz var idi.

Qənbər (*səsi gəlir*). Ay Hüseyn, məni avara qoyma axı.

Hüseyn. Gəlirəm, Qənbər dayı, bu saat. (*Çıxır*)

Ağazadə. Nə olub, Rəhilə? Əsəbisən?

Rəhilə. Başlarını soxublar kola, quyruqları görünür, xəbərləri yoxdur. Dünənki materiallarla tanış oldun?

Ağazadə. Prokurordadır. Necə? Yoxsa təzə iş açılıb?

Rəhilə. Gülümovu günü bu gün məsuliyyətə almaq lazımdır.

Ağazadə. Son darıxma, Rəhilə. Bu gün-sabah Qurbanovun bu baqqal dükanını bağlayarıq, alver kəsilər. Mən yoxlamanı qurtarıb bütün məsələni raykom katibinə danışmışam. İndi çalışmaq lazımdır ki, bunlar axırlarını hiss eləyib şey-şüy çıxarmasınlar. Əli kişi haradadır? O mənə lazımdır.

Çıxır.

Rəhilə. Murad? Niyə dinmirsən?

Murad. Rəhilə, sənə çox sözüm var, amma deməyə utanıram.

Rəhilə. Niyə utanırsan ki? De görək nə var?

Murad. Hamısını bu məktubda yazmışam. Oxu, cavabını ver.

Səməndərli ilə Hüseyn içəri girirlər.

Rəhilə. Cavabı hazırdır. Mən də yazmışam. Al sən də bu məktubu oxu.

Murad. Cavabımı tez verərsən ha...

Rəhilə. Yaxşı...

Murad. Yenə dedi işim var. Vaxtının bir dəqiqəsini də mənə sərf eləsən nə olar? (*Hərəsi bir tərəfə çıxır*)

Səməndərli. Gördünmü, ey bədbəxt, kar da səni mindi.

Hüseyn. Gördüm, gördüm. Ölən günümdür, Səməndərli! Bu kara zəhər verib öldürməsəm, kişi deyiləm.

Səməndərli. Boş danışma. Onsuz da, kişi deyilsən. Zəhər... elə şeyləri böyük pyeslərin qəhrəmanı eləmir. Sən heç birpərdəli pyeslərin də qəhrəmanı olmağa layiq deyilsən. Axmaq!

Hüseyn. Bəs mən neyləyim axı? Yanıram, özüm də tələsirəm.

Səməndərli. Qıza pul göstərmək lazımdır. Gedək. Hazırlaş. Yarım saata kimi pul qıza verilməlidir.

Hüseyn. Paltarımı da təzələyim?

Səməndərli. Mütləq. Gedək...

Çıxırlar. Qurbanov və Gülümov içəri girirlər.

Qurbanov. Bura gəl görək, Gülümov, gör Qurbanovun başında nələr var.

Gülümov. Nə deyirlər axı, yoldaş Qurbanov?

Qurbanov. Nə bilim? Deyirlər, guya mən idarəni ələ salmışam. Qumrunu öpmək istəmişəm.

Gülümov. Baho, böhtan bu dünyanı dağıtmır, yaxşıdır.

Qurbanov. Halbuki, dişinə baxmaq istəyirdim ha... Cavan qızdır. Dişləri xarab olmasın, qayğı, insan qayğısı... Amma Gülümov, iş ki, bu pilləyə mindi, Qumrunu alacağam, acığnan, çağır onu bura görək.

Gülümov. Bir az səbir eləyin, yoldaş Qurbanov.

Qurbanov. Səbirdən keçib. Daha bir dəqiqə dayanmaq olmaz. Əvvəllər onu siyasət ilə almaq istəyirdim. İndi iş prinsipə düşüb. (*Qumru içəri girir*) Aha, Gülümov, bizi tək qoy, özü öz ayağı ilə gəlib çıxıb.

Gülümov. Baş üstə, cürətli olun... (*Çıxır*)

Qumru. Yoldaş Qurbanov, alın, bu mənim ərizəm, məni işdən çıxarın.

Murad içəri girir.

Murad. Buyurun, yoldaş Qurbanov.

Qurbanov. Nəyi buyurum? Mən səni çağırdım?

Murad. Bəli.

Qurbanov. Çağıranda gəlmir, çağırmayanda gəlir. Sənin qulağına səs düşüb, bala, get, işimiz var.

Murad. Baş üstə, özü çağırır, özü də deyir get.

Çıxır.

Qumru. Yoldaş Qurbanov, məni məəttəl eləməyin. Bu cür başsız idarədə işləmək istəmirəm.

Qurbanov. Qumru! İstəyirsən mənim ürəyim partlasın? Axı yoldaş nədir mənə deyirsən? Mənə de Qurban, mənə de, Qurbancığım. Mənə bir naz elə, küs, barış.

Qumru. Yəkə kişisən, utanmırsan, qızın yerindəyəm.

Murad gəlir.

Murad. Vaxtınız varsa, kağızları gətirim qol çəkin, yoldaş Qurbanov.

Qurbanov. Əşi, bu nə kələkdir mən düşmüşəm? Nə gir-gir girləyib məni, nəfəsimi almağa qoymur. Gülümov! Ay Gülümov.

Gülümov gəlir.

Gülümov. Hazır. Buyurun, nə olub?

Qurbanov. Ya bunu rədd elə, ya da ki, əlimdən xata çıxacaq.

Gülümov. Murad, sən get, hələ vaxtı deyil. Sonra gələrsən.

Murad. Yazın, yoldaş Gülümov, yazmasanız başa düşmüyəcəyəm.

Gülümov. Yaza-yaza lap yazıçı olduq getdik. (*Yazıb verir*)

Murad. Nə vaxt deyərsiniz, onda gələrəm. Mənə nə var?

Çıxır.

Qumru. Mən görürəm ki, siz burada bütün idarəni ələ salmısınız. Ayrı yerə müraciət eləsəm, daha düz olar. (*Çıxır*)

Qurbanov. Bu nə deyir, a Gülümov? Niyə belə eləyir. Bəs sən mənə deyirsən ki, razılıq verib.

Gülümov. Mən onun nə dediyini başa düşürəm. Yəqin nişan istəyir.

Qurbanov. Nə nişanı? Bəs sənin aldığın mirvari nədir?

Gülümov. Mirvari hədiyyədir, nişan həmişə üzükdən olar. Arvaddır da. Qaş-daş sevən olurlar.

Qurbanov. Yox, bu daha evlənmək olmadı, talan oldu. Bu cür evlənmək sərf eləməz ki...

Gülümov. Üzük mütləq lazımdır, yoxsa məsələ uzanar.

Qurbanov. Axı mənim pulum hanı ki, üzük alım? Üzüyün biri, nə bilim, neçə mindir?

Gülümov. Bir çarə var. Amma deməyə qorxuram.

Qurbanov. Əgər bir bicliyin yoxdur, niyə qorxursan, de görək.

Gülümov. Biclik deyəndə, balaca bir götür-qoy eləmək istəyirəm.

Qurbanov. O necə götür-qoydur?

Gülümov. Selpodan bizimkilərə iki ton kartof düzəltmişəm. Heç kəs bilmir. Onu əritmək istəyirəm. Bizim işçilərin heç birisinin kartofa ehtiyacı yoxdur.

Qurbanov. Vəssalam?

Gülümov. Vəssalam. Bu götür-qoydan bir brilyant üzük əmələ gələr.

Qurbanov. Ay Gülümov, onsuz da adımız bədnamdır. Üstü açılar, yaxşı olmaz.

Gülümov. Nə üçün yaxşı olmur, yoldaş Qurbanov? Bəs, yaxşı, siz təkcə bir maaş ilə evə baxasınız, paltar alasınız, yemək yeyəsiniz?

Qurbanov. Sən öl, maaşım arağıma çatmır.

Gülümov. Yəni əslində üzük-zad hamısı boş şeylərdir. Marks "Kapital" əsərində yazıb ki, kommunizm dövründə üzük olmayacaq. "Kapital"ı oxumusunuz?

Qurbanov. Rəbfakda oxuyanda ha istədim başlayam, olmadı. Ayıq olanda hövsələm gəlmədi. İçəndə də adam özü "Kapital"dan çox bilir.

Gülümov. Onda qol çəkin, məsələ həll olunsun.

Qurbanov. Gətir, bu da kartof. Material veronin gözü çıxsın. Amma ehtiyatlı ol ha...

Gülümov. O barədə çoxları gəlib məndən dərs ala bilərlər.

Qurbanov. Yaxşı, üzüyü ver, bəlkə damağı açıla. Gör ZAQS-a nə vaxt gedirik?

Gülümov. Mən onu yola gətirərəm. Gedin bir bəzənin. Qızın gözünə kül üfürmək lazımdır.

Qurbanov. Onu da düz deyirsən, məni raykomdan soruşsalar, de ki, ispalkoma getdi, ispalkomdan soruşsalar, de ki, raykoma getdi.

Gülümov. Baş üstə. Təki məndən soruşsunlar. Ağızlarını elə kolluğa sallam ki, bir gün çıxa bilməzlər.

Çıxırlar. Hüseyn və Səməndərli içəri girir.

Hüseyn. Səməndərli, amandır, ürəyim tıp-tıp tıppıldayır. Elə bil, sinəmdə atlı milisioner gəzir.

Səməndərli. Sənin vəziyyətin bu saat böyük Hamletin vəziyyətinə oxşayır. Ya Rəhilə və yaxud məhkəmələr qapısında tökülən qanlı göz yaşları. Ölüm, ya olum. Budur məsələ.

Hüseyn. O sözü dilim tutmur axı.

Səməndərli. Tutar, pul hazırdırmı?

Hüseyn. Hazırdır. Budur, dəsmala bükmüşəm.

Səməndərli. İçində nə qədərdir?

Hüseyn. Altı min.

Səməndərli. Azdır, bir min də artır.

Hüseyn. Bəsdir, məni dolama, taksi-zad kəsilməyib ki?

Səməndərli. Yaxşı. Mən burada bir kölgədə dayanacağam. Aha, Rəhilə gəlir, sən möhkəm ol, pulu verib sözünü dedin, çıx get. Dalını mən özüm danışaram.

Hüseyn. Tir-tir titrəyirəm.

Səməndərli. Sevginin gücündəndir. Hələ sən üç gün bərk qızdıracaqsan. O gəlir, mən gizləndim.

Gizlənir. Rəhilə içəri girir, o yan-bu yana baxır. Hüseyndən soruşur

Rəhilə. Qurbanovu görmədiniz ki?

Hüseyn (*Yaxınlaşıb diz çökür. Əlindəki bağlamanı Rəhiləyə verir. Rəhilə özü bilmədən bağlamanı alır*). Ööllum, ya oo... o...

Rəhilə. Nə deyirsən?

Hüseyn. İlişdim.

Rəhilə. Nəyə ilişdin?

Hüseyn. Zəhrimar yadımdan çıxdı, Səməndərli. Dayanım, ya gedim? (*Səməndərli çıxır, ona işarə edir ki, getsin. Hüseyn gedir*)

Rəhilə. Bu neyləyir? Dəli olub, nədir? Bu nə idi mənə verdi?

Səməndərli (*gülür*). Mənə verin, Rəhilə xanım, bu yalandan saxta hədiyyədir. (*Bağlamanı alır*) Mən Hüseynə artistlik öyrədirəm.

Rəhilə. Artistlik öyrədirsiniz?

Səməndərli. Bəli, indi gördüyünüz səhnə, gənc bir oğlanın qıza hədiyyə təqdim etməsini təsvir edirdi. Ancaq heyf ki, imtahan verə bilmədi, çaşdı, sözünü demədi.

Rəhilə. Siz özünüz artistlik bacarırsınız ki, başqalarına da öyrədirsiniz?

Səməndərli. Əlbəttə, həyat müvəqqəti, incəsənət daimidir. Mən çox artistlər yetişdirmişəm. İstəyirsiniz sizi iki günün içində aktrisa eləyim?

Rəhilə. Yox, məndən aktrisa olmaz. Qurbanovu görmədiniz ki?

Səməndərli. Yoldaş Qurbanov elə bu saat çıxdı. (*Rəhilə çıxır*)

Səməndərli pulları təlosik əleyhqazın içinə qoyur. Hüseyn içəri girir.

Hüseyn. Getdi?

Səməndərli. Apardı.

Hüseyn. Axır sözü nə oldu?

Səməndərli. Əvvəlcə çəm-xəm eləyirdi. Pulu almaq istəmirdi. Elə ki, altı min manatın adını eşitdi, o saat hərbi vəziyyət dəyişdi. O daşürək yumşalıb, mum kimi oldu.

Hüseyn. Pul elə şeydir, bəs nə üçün getdi?

Səməndərli. Getdi, pulları saymağa.

Hüseyn. Qurban olum sənə, Səməndərli, daha nə dedi?

Səməndərli. Boynuna aldı ki, iki gündür səni sevirmiş.

Hüseyn. Zarafat eləmə, əşi. Bəs niyə demirdi?

Səməndərli. Çünki sevgi elə şeydir, sevgi çox qapıları bağlı qoyub, çox dilləri lal eləyib.

Hüseyn. Gərək elə günü bu gün gedəm onunla görüş təyin eləməyə.

Səməndərli. Yox, yox, aman günüdür, işi korlarsan, hələ sən onunla bir kəlmə də danışma. İndi hələlik, siz hicran alovunda cızbız kimi qovrulmalısınız. Gəl gedək.

Çıxırlar. Rəhilə və Qurbanov içəri girirlər.

Qurbanov. Vaxtım yoxdur. Gülümovun işlərinə istirahət günündən sonra baxacağam. Qoyun bir az da ruh məsələlərilə məşğul olaq.

Rəhilə. Siz ruh məsələlərilə məşğul olursunuz. Amma idarəni dağıdırlar.

Qurbanov. Yenə dedi "idarəni dağıdırlar". Əşi, qız olasan, bu cür yaxşı demaqoq olasan. Qızım, mən işləyən idarə dağılmaz.

Qumru içəri girir.

Qumru. Amma mən sübut eləyərəm ki, idarə dağılır, anbar dağılır, Gülümov oğrudur.

Qurbanov. Qumru? Sən də? Əşi, sən uyma bunlara, gəl gedək, sənə xüsusi tapşırığım var.

Qumru. Əlini uzaq elə. Biz qoymarıq ki, xalq malını tarac eləyəsiniz.

Qurbanov. Bacım, siz uşaqsınız, fikirləşməmiş danışmayın, adamlara ləkə atmayın. Sən öləsən arvad-uşaq əlində qalmışıq. Gülümov bu idarənin sütunudur.

Rəhilə. Amma bu kağızlar deyir ki, Gülümov idarənin sütununu yerli-köklü oğurlayıb aparmaq istəyir. 12 ton taxıl israf olunur. Mən bu saat məsələni prokurora verirəm.

Qurbanov. O cür kağızlarla adam tutmazlar. Gülümov namuslu işçidir. Uşaq olmayın.

Əli kişi içəri girir.

Əli kişi. Yoldaş Qurbanov, bu arabalar kimindir qapının ağzında?

Qurbanov. Hansı arabalar?

Əli kişi. Bilmirəm, boş arabalardır. Arabaçılar deyir ki, taxıl aparmağa gəliblər.

Rəhilə. İş tərsinə düşüb. Bura taxıl gətirməkdənsə, buradan taxıl aparırlar.

Qurbanov. Bura bax, Əli dayı, get öz işinə. Hər yerə başını soxma, iş mənim başımdan aşıb, tələsirəm.

Çıxmaq istədikdə, Ağazadə ilə qarşılaşır.

Ağazadə. Qurbanov, sizi raykomda axtarırlar.

Qurbanov. Məni neyləyirlər? Qoymazlar başımızı aşağı salıb, işimizi görək.

Ağazadə. Başınızı aşağı salıb işinizi görsəydiniz, heç kəsin sizinlə işi olmazdı. Amma bu gördüyünüz işlər üçün məsuliyyət daşımalı olacaqsınız.

Qurbanov. Ey, ey, məni hədələmə ha! Yaxşı, gedim raykoma, yoqin yenə təlimatlandıracaqlar, gələrsən sənlə döş-döşə verib danışarıq.

Çıxır

Ağazadə. Gördünüz, tez suyu süzülə-süzülə getdi. Amma bilmir ki, məsələ qurtarıb. Mənim yoxlamam üzrə bütün materiallar prokurora

verildi. Qurbanov haqqında da mənə elə gəlir ki, möhkəm ölçü götürüləcək. Qumru, biz gedək.

Qumru və Ağazadə çıxır.

R ə h i l ə. Əli dayı, gözətçilərə tapşır, kimin kağızı olur-olsun, bir kilo da taxıl buraxmasınlar.

Ə l i k i ş i. Uşaqsan?

Çıxırlar. Q ə n b ə r və H ü s e y n gəlirlər.

Q ə n b ə r. Arabalar qapıdadır. Səməndərlini tapıb çıxardaq, gecikmək olmaz.

H ü s e y n. Mən öz işimi görmüşəm. Yemişəm halvanı, minmişəm eşşəyi. Rəhilə xanımı da mən alandan sonra sən arabaları çoxalt, bazarı böyüt. Ayda sənə filan qədər taxıl verəcəyəm.

Q ə n b ə r. Taxıl, bala, elə şeydir ki, müştərisi həmişə qulağının dibindədir.

G ü l ü m o v gəlir.

G ü l ü m o v. Səməndərli haradadır?

H ü s e y n. İndicə gələr. Nə var, Gülümov dayı. Kefsiz görünürsünüz?

G ü l ü m o v. Kefsiz niyə oluram? Gülümovun kefi lap yuxarıdır, dayının rəngi mənim xoşuma gəlmir. Qurbanov yoldaş qayıtmadı?

H ü s e y n. Dayım bu saat getdi. Deyirdi ki, raykoma çağırırlar. Yəqin yenə qulluğunu böyüdürlər.

G ü l ü m o v. Yox, olsa-olsa, qulluğunu balacalatmaq üçün çağırırlar. İndi o vaxt deyil.

H ü s e y n. Əşi, yox a... Heç dayıma bata bilərlər?

G ü l ü m o v. O boyda nemesə batdılar, dayın nədir ki... Ehtiyatlı olun. Bu saat dayıya-zada etibar yoxdur. (*Çıxır*)

Q ə n b ə r. Bu Gülümovda bir xəbər var, deyəsən.

H ü s e y n. Bilmirəm. İkihaça danışır. Gələn kimi dayımın ovcuna qoymasam, kişi deyiləm.

S ə m ə n d ə r l i içəri girir.

S ə m ə n d ə r l i. İş baş tutmur, ey mənfur taxıl qəhrəmanları.

H ü s e y n. Necə yəni, baş tutmur?

S ə m ə n d ə r l i. Cəbhədə vəziyyət gərginləşir. İspalkomun əmrilə bütün gözətçiləri doyişib təzələrini təyin cləyiblər. Bu gözətçilər də

atalarını tanımaq istəmirlər. İçəriyə nə qədər taxıl gətirirsən, gətir, amma bayıra bir misqal da çıxartmaq olmaz.

Q ə n b ə r. Hə, bu əngəl oldu. Oğul, al qəbzini, pulları bəri ver, bizim alverimiz baş tutmadı.

H ü s e y n. Pul hanı? Pullar Rəhilə xanımda, onun da məhəbbəti mənim ürəyimdə.

Q ə n b ə r. Bu olmadı. Pulların da məhəbbəti mənim ürəyimdədir axı!

S ə m ə n d ə r l i. Dayan, bəlkə çarə tapdıq. Mənim beynimdə dərin bir hərbi plan fır-fır fırlanır.

Q ə n b ə r. Sənin beynin fırlanıb qurtarıncaya qədər mənim arabalarımın başını tutarlar. Tez ol...

S ə m ə n d ə r l i. Bu sənin üçün halva-zad deyil ki, tədbir lazımdır, tədbir. Sən get arabaların yanına, adamları hazırla, qoy, qayıt, taxıllar haradadır?

H ü s e y n. Anbarın dal qapısından çıxardıb balkonun altına yığmışam.

S ə m ə n d ə r l i (*Qənbərə*). Çox yaxşı. Sən get, tez qayıt...

Q ə n b ə r. Mən sizə arxayınam. Tez eləyin. (*Çıxır*)

H ü s e y n. Yox, bu gün buradan taxıl çıxartmaq olmaz.

S ə m ə n d ə r l i. "Olmaz" olmasın. Kişinin pullarını qaytararsan.

H ü s e y n. Pul hanı, pulları sənin yanında verdim ki.

S ə m ə n d ə r l i. Onda sənin işin yaxşı olmur. Sənin qəbzin Qənbərin cibində. Sabah qəbzi aparıb verəcək prokurora. O da ki, səni çoxdan hərləyir girinə keçirsin. Yaxşıca əlinə düşərsən. Yox, Otello, sənin səadət qapıların bağlandı. Kəlmeyi-şəhadətini de.

H ü s e y n. Mən neyləyim, ay Səməndərli? Budur, taxıllar bı rada, nə vaxt istəyirsiniz aparın! Məni niyə sıxışdırırsan? Dayımdan ıtanmırsan?

S ə m ə n d ə r l i. Hə, indi ki, belə tez yola gələnsən, onda qu aq as, gör nə deyirəm. Mən sənə işarə eləyən kimi bizim MPVO-nu ı fitini çalarsan.

H ü s e y n. Ondan nə olsun ki?

S ə m ə n d ə r l i. Nə olacaq? Fit çalınan kimi mən həyəcan deyib çığıracağam. Camaat qaçıb dolacaq zirzəmilərə, mühafizəçi-zad qalmayacaq. Ara xəlvətkən Qənbər taxılları daşıyar. Başa düşdün, ey səmimiyyət dağarcığı...

H ü s e y n. Yox, mən bacarmaram. Müharibə vaxtı həyəcan ilə zarafat olmaz.

Səməndərli. Zarafat ilə demirəm ki... Fiti çal, çəkil dur kənarda, dalını mən yoluna salaram. Bəri gəl, səni bir yaxşı başa salım.

Çıxırlar. Qurbanov kefsiz içəri girir.

Qurbanov. Gülümov, ay Gülümov!

Gülümov çıxır.

Gülümov. Gəldiniz, yoldaş Qurbanov? Xeyir ola, nə münasibətlə çağırmışdılar?

Qurbanov. Burada adam yoxdur ki?

Gülümov. Xeyr, adam nə gözir! Sözünüzü deyin.

Qurbanov. Mənə bir az pul lazımdır.

Gülümov. Pul? Mən ölməmişəm ki... nə qədər istəsəniz. Pul nəyinizə lazımdır ki?

Qurbanov. Gərək təcili Bakıya gedəm.

Gülümov. Bakıya? Nə üçün? Bilmək olmaz?

Qurbanov. Partbiletimi əlimdən aldılar. Görək, bəlkə Bakıda ərizədən-zaddan verdik, düzəldi.

Gülümov. Partbiletinizi niyə aldılar axı?

Qurbanov. Partiyadan çıxartdılar da...

Gülümov. Bəs qulluqdan necə?

Qurbanov. Partiyadan çıxardandan sonra daha qulluqda qoymayacaqlar ki. Təcili Bakıya getmək lazımdır. Bir az pul tap, tez ol.

Gülümov. Hə, burada iş bir az yoğunladı. Mənim pulum haradandır ki, sizə verim.

Qurbanov. Bəs indicə deyirdin ki, nə qədər istəsən, verərəm.

Gülümov. Yoxdur da... yoxdur... başa düşmürsən? Hansı hesabdan verim? Xirtdəyə kimi kassaya borclusunuz. Heç bilmirəm onları neyləyəcəyik?

Qurbanov. Sən nə üzüdönük adamsanmış...

Səməndərli içəri girir.

Səməndərli. Mən hazır...

Qənbər və Hüseyn içəri girirlər.

Qənbər. Biz də hazırıq.

Qurbanov. Bunlar nəyə hazırdırlar?

Gülümov. Sizi yola salmağa.

Rəhilə və Murad içəri girirlər.

Rəhilə. Nə olub? Yenə yığıncaqdır?

Murad. İclasdır, yoxsa? Onda mənə söz verin.

Səməndərli (*Hüseynə*). Sən get fiti çal.

Hüseyn. Qorxuram axı...

Səməndərli. Get, qorxma. (*Hüseyn çıxır*)

Qurbanov. Rəhilə? Son bayaq bu Gülümov barədə nə deyirdin, deyəsən, düz deyirsənmiş axı.

Rəhilə. Nə olub belə, yumşaldınız?

Birdən fit çalınır. Hamı donub qalır.

Səməndərli. Həyəcan, qaçın. Gizlənin, düşmən təyyarələri anbarların üstündədir. Qaçın zirzəmilərə.

Camaat qaçır. Qaçaqaç düşür.

Murad. Rəhilə! Deyəsən, burada bir kələk var. Sən get gözətçilərin yanına.

Rəhilə çıxır.

Qənbər. Bu kar fiti eşitmədi axı, neyləyək?

Səməndərli. Murad? Qaç gizlən, həyəcandır.

Murad. Nə olubdur, deyirsən?

Qənbər. İş çətinləşdi. Bunu başa heç cür salmaq mümkün olmayacaq!

Hüseyn (*içəri girir*). Tez olun görək, yubanmayın.

Səməndərli. Əşi, bu kar fiti eşitmir. Bir söz başa salmaqda olmur.

Hüseyn. Mən bu saat onu çıxardaram. (*Muradın qolundan tutur*) Murad! Gəl, dayım səni çağırır. (*Onu dartaraq aparır*)

Səməndərli. Di tez olun, əmin-amanlıqdır.

Taxılları daşıyanda səhnə qaranlıqlaşır.

BEŞİNCİ ŞƏKİL

Yenə həmin yer. Murad içəri girir. Kağızları eşələyəndə Əli kişi gəlir.

Əli kişi. Murad, al, bu da onların yalançı propuskları, götür dəmir sandıqda saxla.

Murad. Əli dayı, sən get qapıdan muğayat ol!

Əli kişi. Qapı möhkəmdir. Qala qapısı kimidir. Gör ha, xalqın qızıl kimi buğdasını necə daşımaq istəyirdilər.

Murad. İstəyəndə gəlib məndən alarlar da.

Əli kişi. Əşi, sənin də qulağına qurban olum, gah yaxşı olur, gah xarab.

Çıxır. Səməndərli içəri girir.

Səməndərli. Həyəcan qurtardı, həyəcan qurtardı. Düşmən təyyarələri idarəyə buraxılmadı.

Murad. Nə var, Səməndərli? Hələ yenə qorxu var? Qurtarmadı?

Səməndərli. Qurtardı, qurtardı.

Murad. Hara düşdü? Buğda anbarına bir zərər dəymədi ki?

Səməndərli. Yox, ötüb keçdi.

Murad. Keçdi? Beş qardaşı vur bura.

Səməndərli. Al, əl çək yaxamdan. (*Murad çıxır, Qənbər içəri girir*) Qənbər? Həyəcan qurtarmadı?

Qənbər. Haradan qurtardı ki? Həyəcan hələ bundan sonra başlayacaq. Yaman kələyə düşdük.

Səməndərli. Nə olub axı? Ədə, mallar darvazanın o tayındadır.

Qənbər. Qarovulçuları təzələyiblər. Sənin fitin çalınanda heç kəs yerindən tərpənmədi. Tez ol, mənə bir siçan yolu göstər.

Səməndərli. Dayan, görək. Müharibə dövründə özünü itirmək ən böyük məğlubiyyətdir. Qoy bir çarə tapaq.

Hüseyn içəri girir.

Hüseyn. Nə olub? Həyəcan qurtarmayıb?

Səməndərli. Bura gəl, həyəcan hələ indi başlayıb. Tez ol, dayını tapıb taxılı buraxdır.

Hüseyn. Nə bilim, qaçıb harda gizləndi.

Səməndərli. Axtarın, çarə ondadır. Qurbanov tapılmalıdır.

Hərəsi bir tərəfə gedir. Qənbər çıxanda Gülümov ilə rastlaşır.

Qənbər. Yoldaş Gülümov, dadımıza çat, yoxsa məsələnin bir ucu sənə də toxunacaq.

Gülümov. Axmaq-axmaq danışma, kişi. Açıq de görək, nə olub?

Qənbər. Görmürsən bu boyda zurnanı? Tutublar.

Gülümov. Bunları tutublar. Sənin ayaqlarını tutmayıblar ki? Aradan çıx, izi itir.

Qənbər. Yox, arabalarım içəridədir. Buradan çıxartmasam sonra arabaçılar üzümə dura bilərlər.

Gülümov. İş görməyi bacarmırsınız, durun qıraqda, bizim çörəyimizə mane olmayın. Gedək, arabaları mən buraxdırım. Amma bir də daha taxıl idarəsinə ayaq basmayasan.

Qənbər. Uşaqsan? Bu oyundan çıxsam, tamam rayondan çıxaram. (*Çıxırlar*)

Ağazadə və Əli kişi içəri girirlər.

Əli kişi. Murad indicə buralarda idi ha... Sağ olmuş hara getdi?

Ağazadə. Arabaları buraxmayasan ha, Əli dayı?

Əli kişi. Araba buraxaram?

Murad içəri girir.

Ağazadə. Murad, o propuskları bura ver görüm.

Murad. Hamısı saxtadır. Budur, bura qoymuşam.

Ağazadə. Əli kişi, gedək. Bunları kimdən aldığını mənə göstər.

Əli kişi. Gedək oğul, gedək.

Çıxırlar. Rəhilə içəri girir.

Rəhilə. Murad? Burada nə qurdalanırsan? Dur gedək, davaqiyamət oradadır.

Murad. Rəhilə, məktubunu oxudum, bu gün mənim ən şad günümdür.

Rəhilə. Mən də sənin məktubunu oxumuşam.

Murad. Bəs niyə bir kəlmə dinmirsən?

Rəhilə. Ay Murad, qulağın eşidir ki!

Murad. Hə? Nə dedin, Rəhilə? Qulaq nə qədər kar olsa da bu cür ürəkaçan sözləri eşitməyə bilməz. Ver, əllərini öpüm. O əllər məni xoşbəxt həyata aparır.

Rəhilə. İş yalnız ondadırsa, al bu da mənim əllərim.

Murad Rəhilənin əllərindən hörmətlə öpür. Bu anda Hüseyn içəri girir. Bu vəziyyəti görüb çığırır.

Hüseyn. Səməndərli! Özünü çatdır, kar mənim namusumu oğurladı.

Rəhilə (*tez çəkilir*). Nə var? Niyə çığırırsan?

Hüseyn. Necə niyə çığırırsan? Namusumu oğurlayır. Nə ixtiyarla sənin əllərini öpür?

Rəhilə. Necə? Yoxsa mənim əllərimi satın almısan?

Hüseyn. Bəs necə? O əllər mənə altı min manata oturub. Pulu xərcləyib, vərəni yaddan çıxardırsan, Rəhilə, adam vicdansızlıq eləməz axı.

Murad. Nə deyirsən, anbar? Vicdansız kimə deyirsən?

Hüseyn. Sənə deyirəm, əl çək ondan. Ətək-ətək pul tökmüşəm. Karın Allahı var, mənimki yoxdur?

Murad. Vicdansız sənsən ki, hökumətin taxılını oğurlayıb satırsan.

Rəhilə. Sən mənə nə üçün pul verməli idin axı?

Hüseyn. Məni sevmək üçün, yoxsa onu sən pul hesab eləmirsən.

Rəhilə. Onları Səməndərli məndən aldı. Dedi ki, bu yalandandır. Mən Hüseynə artistlik öyrədirəm.

Hüseyn. Necə? Artistlik öyrədirəm? Altı min manata artistlik? (*Səməndərli içəri girir*) Aha, özün öz ayağınla gəlib çıxdın. Çıxart görək pulları.

Səməndərli. Aman Allah, evimiz yıxıldı. Zavallı axırda dəli oldu.

Hüseyn. Xeyr, mən hələ dəli deyiləm. Pulları səndən almasam, onda dəli olacağam. Qaytar pulları.

Səməndərli. Axmaq-axmaq danışma. Mən pul üzü görməmişəm. Pul mənim nəyimə lazımdır? Mən səhnə xadimiyəm. Həyat müvəqqəti, incəsənət daimidir.

Hüseyn. Bu saat mən sənə sübut eləyəcəyəm ki, doğrudan da, sənin həyatın müvəqqətidir.

Səməndərli. Zavallı.

Hüseyn. Zavallı atandır.

Qənbər içəri girir.

Qənbər. Əşi, bu Qurbanov yoldaş nə oldu axı? Yoldaş Qurbanov?.. (*Birdən-birə Rəhilə və Muradı görüb dayanır*) Bağışlayın, həyəcan qurtarıb?

Murad. Budur özü də gəldi.

Rəhilə. Bura gəl görək, Qənbər, bu taxılları hara aparırdın?

Qənbər. Hansı taxılları? Mənim xəbərim yoxdur.

Rəhilə. Yaxşı, bu kisələr özbaşına bura yığılmadı ki... Bunları sizə kim verib?

Səməndərli. Təbiət. Rəhilə xanım, taxılın əmələ gəlməsi haqqında mən sizə iki saatlıq elmi məruzə eləyə bilərəm.

Rəhilə. Bizim məruzəyə ehtiyacımız yoxdur. Murad, biz gedək bir akt bağlayaq. Lazım olacaq. (*Çıxırlar*)

Hüseyn. Görüm o altı min manat altı min ilan olub sarılsın sənin boğazına, Səməndərli.

Səməndərli. Sus, cy səfillər kralı! Yaxşısı budur ki, Qurbanovu tapaq. Yoxsa üçümüz də bu gün mənzilimizi dəyişməli olacağıq.

Qənbər. Mən bütün tədbirimi çaşdırmışam. Tez olun mənim yaxamı qurtarın, o boyda ailə qoyub gəlmişəm.

Səməndərli. Ailə insanın namusudur. Namus nədir, başa düşürsünüz? Haradan başa düşəcəksiniz ki? Evinizdə bişməyib, qonşudan gəlməyib.

Qurbanov gizləndiyi yerdən başını çıxarır.

Qurbanov. Həyəcan qurtarıb?

Hüseyn. Dayı... tapıldı.

Qənbər. Yoldaş Qurbanov!

Səməndərli. Qurtardı, yoldaş Qurbanov, idarəyə bir dənə də düşmən buraxılmadı.

Qurbanov. Çox gözəl olub, bu cür idarədə düşmənin nə işi var? Bu kisələr nədir? Yoxsa? səngər düzəltmisiniz?

Səməndərli. Bu kisələr səhvdir, yoldaş Qurbanov.

Qurbanov. Necə? Kisəyə də səhv doldurarlar? Bu qədər də səhv olar? Bacıoğlu, bu nə işdir?

Hüseyn. İlişmişik, dayı.

Qənbər. Gözətçilərə ilişmişik, yoldaş Qurbanov. Bizi incidirlər.

Qurbanov. Səməndərli, sən ki, bütün düyünləri açansan, uşaqlara kömək eləsənə ilişikləri açılsın.

Səməndərli. Bu düyün kor düyünüdür, yoldaş Qurbanov. Bunu yalnız sizin barmaqlarınız açа bilər.

Q u r b a n o v. Yox bala, daha mənim barmaqlarım gücdən düşüb. Düyün açmalı halım yoxdur.

R ə h i l ə A ğ a z a d ə içəri girir.

R ə h i l ə. Budur, sərəncam verən Qurbanovdur. Görək, özü boynuna alacaqmı?

Q u r b a n o v. Bacım, sən necə girdin ortalığa, axı sən nərmənazik bir qızsan. Bizim hücumumuza dözə bilməzsən.

R ə h i l ə. Sizin işiniz hökumət taxılının dağıdılmasına yol verməkdirsə, biz bir kənara çəkilib dura bilməyəcəyik.

Ə l i k i ş i, G ü l ü m o v Q ə n b ə r içəri girirlər.

Ə l i k i ş i. A yoldaş Ağazadə, bu Gülümovun nə ixtiyarı var, arabaları zor eləyib həyətdən çıxartdırmaq istəyir?

G ü l ü m o v. Bəs, sən nə ixtiyarla xalqın arabalarını saxlamısan?

Q ə n b ə r. Müdir deyəndən sonra nə karəsən, axı?

S ə m ə n d ə r l i. Möhtərəm müdir, bir gücünü bunlara göstər.

H ü s e y n. Dayı, bir dil tərpət, görək.

Q u r b a n o v. Yaxşı mən partiyadan çıxmışam, qulluqdan ki, çıxmamışam. Əli kişi, xalqın arabalarını ləngitmə.

A ğ a z a d ə. Sən partiyadan da, qulluqdan da çoxdan kənar olunmusan. Məhkəmədə bu adamlar sənin lə yaxşıca görüşəcəklər.

Q u r b a n o v. Necə? Qulluqdan da? Düyün açmaqdansa, özüm düyünə düşdüm.

H ü s e y n. Dayı, izin verin quluncunuzu sındırım.

Q u r b a n o v. Qumru, müdirin dolaşığa düşdü. Gülümov verən mirvarini, üzüyü çıxart görək. İşsiz adamıq, lazım olar.

Q u m r u. Siz nə danışırsınız? Mirvari, üzük nədir? Bu da təzə kələkdir?

Q u r b a n o v. Ədə, Gülümov, deməli, onları da sən yedin?

G ü l ü m o v. Axmaq-axmaq danışma, kişi. Get işinə.

Q u r b a n o v. Nə ulduzum batdı! Gedim görək, başıma nə çarə qılıram.

M u r a d içəri girir.

M u r a d. Yoldaş Qurbanov, beş qardaşı bura vurmamış gedirsiniz?

Q u r b a n o v. Mən beş qardaşı çoxdan yemişəm.

Çıxır.

R ə h i l ə. Qoy getsin, o bizim cəmiyyətimizdə artıq adamdır.

G ü l ü m o v (*Hüseynə*). Yıx karın boynuna. Onu danışdırınca, aradan çıxarıq.

H ü s e y n. Budur mayeyi-fəsad! Yoldaş Ağazadə, arabalar bu Muradın əmrilə gedirdilər. İnanmırsınız özündən soruşun. Özü də mənim namusumu oğurlayıb.

M u r a d. Nə deyir o? Fasonu oğurlayıb?

S ə m ə n d ə r l i. Ay sağ ol, Mirzə Mülküm xan. Yaxşı yadıma saldın. Bütün kələklərin yuvası bu kardır. Yoldaşlar, mən hərbi adamam. İcazə verin, bunu tutub ədalət məhkəməsinə təslim eləyim.

M u r a d. Səməndərli, vur bura beş qardaşı görək. Hoqqa çıxartma. Sən mənim qabağıma düş.

Q o n b ə r. Baho, bu eşidir ki?

S ə m ə n d ə r l i. Düş qabağıma deyirəm.

M u r a d. Çığırma, burda kar-zad yoxdur.

R ə h i l ə. Sağ ol, Murad?

H ü s e y n. Dayım necə oldu? Dayı, karın qulağı açıldı...

S ə m ə n d ə r l i. Doğrudan da, bunun qulağı açılıb ki, Hüseyn, sənə demirdim ki, həyat, doğrudan da, müvəqqəti imiş.

G ü l ü m o v. Karın ki, qulağı açıldı, Gülümovun bəxti bağlandı.

F i r u z ə içəri girir.

F i r u z ə. Gəl bura, cehizlərimə kömək elə, Səməndərli.

S ə m ə n d ə r l i. Dayan, Firuzə xanım. Burada, deyəsən, mənə təzə mənzil verirlər.

F i r u z ə. Daha yaxşı, bir yerdə köçərik.

M u r a d. Düşün qabağıma, qurdlar. Əli dayı, tüfəngi bəri ver, görüm.

Ə l i k i ş i. Dayan patron verim, onun içi boşdur.

A ğ a z a d ə. Apar bu xalq malını dağıdanları, Murad, idarəmizdə bunlara yer yoxdur.

M u r a d. Aşına, aşına, çıxdınız ocaq başına. Düşün qabağıma, qurdlar.

F i r u z ə. Sən hara gedirsən, Səməndərli? Yoxsa yenə qəmədiyə çıxardırsan?

S ə m ə n d ə r l i. Yox, Firuzə xanım, artıq komediya qurtardı. İndi bizim faciəmiz başlayacaq.

P ə r d ə

1945

NİŞANLI QIZ

5 pərdə, 6 şəkildə

İŞTİRAK EDƏNLƏR

Bənövşə – tikinti idarəsinin rəisi, mühəndis Camalın nişanlısı
Ceyran xala – onun anası
Camal – mühəndis, tikinti idarəsinin sabiq rəisi və baş mühəndisi
Mirzə Salman – mühasib
Zərifə – onun qızı, katibə
Yusif – tikinti idarəsinin baş mühəndisi
Qəmər – həkim
Mindilli – təchizat şöbəsinin müdiri
Qasım – prorab
Aslan
Gülsüm
Çeşməkli kişi
Sənət məktəbini qurtarmış gənclər, işçilər və qonaqlar.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Hələ tikilməkdə olan evin birinci mərtəbəsi. Burada müvəqqəti olaraq tikinti idarəsi yerləşmişdir. Böyük səliqəsizlik hiss olunur. Zərifə əlində teleqram qaçaraq gəlir.

Zərifə. Yoldaş Camal! Yoldaş Camal!

Mindilli tələsik səhnəyə çıxır.

Mindilli. Nə var, Zərifə, dayan, iki kəlmə sözüm var.

Zərifə. Başım qarışıqdır, görmürsən ki, adam axtarıram?

Mindilli. Dayan, ay qız, icazə ver, o şirmayı barmaqlara bu titrək dodaqlarımı toxundurum.

Zərifə. Vaxtım yoxdur, yoldaş Camala teleqram var, deyəsən nişanlısı gəlir.

Mindilli (*teleqramı onun əlindən alıb oxuyur*). Bəli, deməli, Bənövşə xanım gəlir?

Zərifə. Nə var? Nə ibarə ilə deyirsən: "Bənövşə xanım gəlir".

Mindilli. Başqa bir qadının adını çəkəndə dünya qopar?

Zərifə. Başındakı olan-qalan tükü də mən didib tökərəm ha, az danış.

Mindilli. Bu sözdən sonra lap başını kəsib bir tərəfə qoysan da etiraz eləmərəm. Qısqanclıq sevginin ən birinci əlamətidir.

Zərifə. Bəs səndə niyə o əlamətdən yoxdur?

Mindilli. Necə yoxdur? Bütün günü kölgə kimi dalınca gəzirəm. (*Qasım içəri girir. Mindilli onu görüb sözü dəyişir*) Odur, yoldaş Camal oradadır, həyətdədir. Teleqramı tez çatdır.

Zərifə (*qapının yanında pıçıltı ilə*). Sonra görüşərik, sənə sözüm var.

Çıxır.

Qasım. Buxalterin qızını əlində möhkəm saxlayırsan.

Mindilli. Yaxınlarda toyumuzdur. Ancaq bu yoxlama məsələsi qanımı qaraltdı, heç yerdir? (*gənc ustalar*)

Qasım. Hə, bir az dilxorçuluqdur.

Mindilli. Nə oldu, axır ki, üzülüşüb getdi?

Qasım. Təftişini elədi, aktını bağladı. Getməyib neyləyəcək ki?

Mindilli. O balacaboy göygöz mənə çəpəki baxıb nə soruşurdu?

Qasım. Səninlə maraqlanırdı.

Mindilli. Mənimlə?

Qasım. Hə, elə başa düşmüşdü ki, sənin iki familiyan var, mən dedim onun əsl familiyası Mindilovdur. Qəhrəman Mindilov. Burada zarafatla Mindilli deyirlər.

Mindilli. Min kərə demişəm ki, zarafat kapitalizm qalığıdır, ondan əl çəkin, başa düşmürlər ki... Sonra nə deyirdi?

Qasım. Bir də deyirdi ki, sənin üstündə çoxlu borc var.

Mindilli. Hə, o barədə mənimlə də danışdı. Rəng yaxmaq istəyirdi, dirədim divara, dedim dayan, kontrolyorsan, ya rəngsaz?

Qasım. Höcət olma, borcun var, qaytar.

Mindilli. Borc hanı? Dağ boyda səpot tökmüşəm buxalterin qabağına... Qəbul eləsin də, niyə yubadır? Qoy bir toyu eləyim. Onda danışacağam. O məni incidir, mən də qızını incidərəm.

Qasım. O qədər də yüngül yanaşma.

Mindilli. Yüngül niyə? Lap Camal yoldaşın özü ilə danışmaq istəyirəm.

Qasım. Danış. Camal qızıl kimi oğlandır.